QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 130 (5602) 13 **iyul** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan bölgədə NATO üçün mühüm tərəfdaşdır

*Prezident İlham Əliyev Brüsseldə NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak edib*




Səh 2

3

Dənizkənarı Milli Parkda BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin əks olunduğu stendlərin açılış mərasimi keçirilib



3

Azərbaycan XİN bəyanat yaydı



16

Xorvatiya millisi tarixində ilk dəfə finala vəsiqə qazanıb



# Azərbaycan bölgədə NATO üçün mühüm tərəfdaşdır

*Prezident İlham Əliyev Brüsseldə NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak edib*





İyulun 12-də Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşü keçirilib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.



## Azərbaycan ilə BMT arasında uğurlu əməkdaşlıq həyata keçirilir

*Prezident İlham Əliyev Brüsseldə BMT baş katibinin siyasi məsələlər üzrə müavini ilə görüşüb*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Brüsseldə BMT baş katibinin siyasi məsələlər üzrə müavini Rozmari Dikarlo ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Azərbaycan ilə BMT arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi.***

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsi müzakirə edildi. Həmçinin ATƏT-in həmsədr ölkələrinin nazirlərinin iyulun 11-də keçirilən görüşü barədə məlumat verildi və ətraflı fikir mübadiləsi aparıldı.

## NATO-nun Zirvə toplantısının yekun kommunikesində növbəti dəfə Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə dəstək ifadə olunub



***NATO üzv dövlətləri Brüsseldə keçirilən Zirvə toplantısının yekununda qəbul etdikləri kommunikedə növbəti dəfə Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə və eləcə də Ermənistan-Azərbaycan münaqişəsinin bu prinsiplər əsasında həllinə dəstək ifadə ediblər.***

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Xarici İşlər Nazirliyi bununla bağlı bəyanat yayıb. Bəyanatda deyilir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak edib. Dövlətimizin başçısı iclasda çıxış edib.

Bəyanatda qeyd edilir ki, 2006-cı ildən başlayaraq NATO üzv dövlətləri Zirvə toplantılarının yekununda qəbul olunan bəyanatlarda Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə davamlı olaraq dəstəklərini ifadə edirlər.

Azərbaycan Respublikası Avropa İttifaqı və NATO üzv dövlətləri tərəfindən müvafiq olaraq Avropa İttifaqı-Azərbaycan Tərəfdaşlıq Prioritetləri Sənədi və NATO-nun Brüssel Zirvə toplantısının kommunikesində növbəti dəfə Azərbaycanın ərazi bütövlüyü, suverenliyinə, o cümlədən sərhədlərinin toxunulmazlığına hörmət və dəstəyin ifadə olunmasını təqdir edir.

Beynəlxalq hüququn norma və prinsipləri, Helsinki Yekun Aktı əsasında dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət edilməsi və dəstək beynəlxalq münasibətlərin əsasını təşkil edir, davamlı sülh və təhlükəsizliyi şərtləndirən vacib amildir.

# Dənizkənarı Milli Parkda BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin əks olunduğu stendlərin açılış mərasimi keçirilib

***İyulun 12-də IDEA İctimai Birliyi, BMT-nin İctimai İnformasiya Departamentinin birgə təşkilatçılığı və Azərbaycan Gənclər Fondunun dəstəyi ilə Dənizkənarı Milli Parkda "BMT-2030" Dayanıqlı İnkişaf Məqsədlərinin əks olunduğu stendlərin açılış mərasimi keçirilib.***







AZƏRTAC xəbər verir ki, tədbirdə Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov, BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi və İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzai, rezident əlaqələndiricinin müavini Alessandro Frakasetti, iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova və 100-ə qədər gənc fəal iştirak edib.



Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov bildirib ki, hazırda dünyada bəzi ölkələr və xalqlar müxtəlif əziyyətlərə məhkum olublar, iqtisadi cəhətdən bir çox dövlətlər geridə qalıblar, müxtəlif ölkələrdə insanlar aclıqdan, yoxsulluqdan əziyyət çəkirlər. Bir sıra yerlərdə xəstəliklər geniş yayılıb və bu da insanlar üçün məhdudiyyətlərə səbəb olur. Bəzi ölkələrdə təhlükəsizlik məsələləri ilə əlaqədar ciddi problemlər mövcuddur. Qaçqınlar problemi hazırda dünyanı narahat edən məsələlərdən birinə çevrilib. Beləliklə də BMT dünyamızın simasının dəyişdirilməsi, iqtisadi gerilikdən əziyyət çəkən dövlətlərin iqtisadi cəhətdən inkişaf etdirilməsi, yoxsulluqdan əziyyət çəkənlərin bundan xilas olması, xəstəliklərdən əziyyət çəkən ölkələrdə xəstəliklərin kökünün kəsilməsi və bütövlükdə dünyada iqtisadi inkişafın, ədalətin təmin edilməsi məqsədlərini 2030-cu ilədək hədəfə götürən 17 məqsəd və 169 hədəf müəyyənləşdirilib. Azərbaycan da daxil olmaqla 2015-ci il sentyabrın 25-də BMT-nin 193 üzv dövləti "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyini" qəbul edib. Prezidentin Sərəncamı ilə Azərbaycanda bu layihənin həyata keçirilməsi məqsədilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb. Hazırda BMT-nin 18 rezident və qeyri-rezident agentliyi Hökumətlə yaxından əməkdaşlığı davam etdirir və 17 Dayanıqlı İnkişaf Məqsədinə nailolma istiqamətində Azərbaycanın səylərini dəstəkləyir.

"Bizim istəyimiz ondan ibarətdir ki, həm dövlət, həm ictimai qurumlar, həm də vətəndaşlar bu məqsədlərin həyata keçirilməsinə cəlb edilsinlər", - deyən Ə.Əhmədov bildirib ki, buna görə də təşviqat kampaniyası çox mühüm əhəmiyyət kəsb edir. Biz istəyirik ki, Azərbaycanın hər bir vətəndaşı dünyanın dəyişdirilməsi məqsədindən ibarət olan Dayanıqlı İnkişaf Məqsədləri və hədəflərinin mahiyyətini dərk etsinlər. Qarşımızda duran vəzifələrin nədən ibarət olduğunu anlasın və öz imkanları çərçivəsində dövlətin və hökumətin bu istiqamətdə həyata keçirdiyi bütün vəzifələri dəstəkləməyə hazır olsunlar. Vətəndaşlarımız bilməlidirlər ki, bu məqsədlər nəyə xidmət edir, qarşıya qoyulan hədəflər nədən ibarətdir və bunların həyata keçirilməsi üçün onların üzərinə düşən vəzifələr nələrdir? Bu, çox maraqlı bir ideyadır. Dənizkənarı Milli Parkda gəzən insanlar Dayanıqlı İnkişaf Məqsədlərinin və hədəflərinin nədən ibarət olduğunu biləcəklər. Məqsədin bütün insanların həyat səviyyəsinin yaxşılaşdırılmasından ibarət olduğunu dərk edən insanlar təbii ki, bu ideyanın reallığa çevrilməsinə öz dəstəyini verəcəklər.

BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri və hədəflər barədə danışan Qulam İshaqzai isə qeyd edib ki, Bakı sakinlərinin və turistlərin ən çox ziyarət etdiyi Dənizkənarı Milli Parkda belə stendlərin quraşdırılmasında məqsəd Azərbaycan ictimaiyyətinin və sıravi insanların BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri barədə daha geniş məlumat əldə etməsidir. O bildirib ki, stendlər BMT-nin Azərbaycandakı nümayəndəliyi, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası və IDEA İctimai Birliyinin təşəbbüsü ilə quraşdırılıb. Stendlərdə 17 ümumbəşəri dayanıqlı inkişaf məqsədi əks olunub. Qeyd edək ki, Dənizkənarı Milli Parkda təşkil olunmuş mərasim 2018-ci ildə IDEA İctimai Birliyinin BMT ilə birgə Dayanıqlı İnkişaf Məqsədlərinin Azərbaycanda təşviq edilməsinə, xüsusən bu mövzuda ictimai maarifləndirilmənin artırılmasına yönəlmiş çoxsaylı tədbirlərdən biridir.

# Azərbaycan XİN bəyanat yaydı

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 10-12 iyul 2018-ci il tarixlərində Belçika Krallığının paytaxtı Brüssel şəhərində işgüzar səfərdə olub. Prezident İlham Əliyev səfər zamanı NATO-nun Zirvə Toplantısı çərçivəsində Şimali Atlantika Şurasının "Qətiyyətli Dəstək" üzrə Əməliyyat Tərəfdaş Dövlətləri və potensial Əməliyyat Tərəfdaş Dövlətləri ilə birlikdə dövlət və hökumət başçıları səviyyəsində iclasında iştirak edib. İclasda Prezident İlham Əliyev çıxış edib.***



SİA-nın verdiyi məlumata görə, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında deyilir. Bəyanatda bildirilir:

NATO üzv dövlətləri zirvə toplantısının yekununda qəbul etdikləri kommunikedə növbəti dəfə Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə və eləcə də Ermənistan-Azərbaycan münaqişəsinin bu prinsiplər əsasında həllinə dəstək ifadə ediblər. 2006-cı ildən başlayaraq NATO üzv dövlətləri zirvə toplantılarının yekununda qəbul olunan bəyanatlarda Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə davamlı olaraq dəstəklərini ifadə edirlər.

Azərbaycan Respublikası Avropa İttifaqı və NATO üzv dövlətləri tərəfindən müvafiq olaraq Avropa İttifaqı-Azərbaycan Tərəfdaşlıq Prioritetləri Sənədi və NATO-nun Brüssel zirvə toplantısının kommunikesində növbəti dəfə Azərbaycanın ərazi bütövlüyü, suverenliyinə, o cümlədən sərhədlərinin toxunulmazlığına hörmət və dəstəyin ifadə olunmasını təqdir edir. Beynəlxalq hüququn norma və prinsipləri, Helsinki Yekun Aktı əsasında dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət edilməsi və dəstək beynəlxalq münasibətlərin əsasını təşkil edir, davamlı sülh və təhlükəsizliyi şərtləndirən vacib amildir.

# Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə yeni avtobuslar verilib








***Muxtar respublikada müasir avtobusların alınaraq xəttə buraxılması və tələbata uyğun hərəkət qrafikinin seçilməsi sərnişindaşıma xidmətinin səviyyəsini xeyli artırıb. İyulun 12-də Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə 5 yeni avtobus təqdim olunub.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Naxçıvan Muxtar Respublikasının nəqliyyat naziri Mirsənani Seyidov çıxış edərək deyib ki, muxtar respublikada nəqliyyatın inkişafı sahəsində kompleks tədbirlər görülür. Sərnişindaşıma ilə məşğul olan avtobusların hərəkət qrafikinə nəzarət olunur, şəhərdaxili və rayonlararası marşrutlar müasir avtobuslarla təmin olunur. Hazırda 6 avtobus Naxçıvan-Bakı və Naxçıvan-İğdır istiqamətində, 56 avtobus isə Naxçıvan şəhərində 8 marşrut xətti üzrə fəaliyyət göstərir. Yeni alınan avtobuslar Naxçıvan şəhərində sərnişindaşıma xidmətinin səviyyəsini daha da artıracaqdır. Mirsənani Seyidov nəqliyyatın inkişafına göstərdiyi qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: Muxtar respublikada bütün sahələrdə inkişaf və tərəqqi vardır. Bu inkişaf və tərəqqi insanların rahat yaşayışına və rifahına xidmət edir. Yeni avtobusların alınıb istifadəyə verilməsi də əhalinin rahat hərəkətinin təmin olunmasına, eləcə də sərnişindaşıma xidmətinin nümunəvi təşkilinə hesablanmışdır.

Ali Məclisin Sədri deyib: Ordubad Dəmiryol Stansiyasının istifadəyə verilməsi, yeni sərnişin qatarlarının alınıb gətirilməsi və bu gün müasir avtobusların təqdim olunması muxtar respublikada nəqliyyatın inkişafı sahəsində görülən işlərin davamıdır. Cəmiyyətin bütün təbəqələri nəqliyyat sahəsindən istifadə edir. Ona görə də nəqliyyat sistemi və bu sahə üzrə göstərilən xidmət nümunəvi təşkil olunmalı, nəqliyyat vasitələri müasir tələblərə cavab verməlidir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikanın bütün yaşayış məntəqələri marşrutlarla təmin olunub. Hazırda muxtar respublikada 139 marşrut xəttində 400-ə yaxın avtobusla sərnişindaşıma xidməti həyata keçirilir. Bütün bunlar da əhalinin rahat və təhlükəsiz hərəkətinin təmin olunmasına, istehsal etdikləri məhsulları vaxtında bazara çıxarmalarına imkan verir.

Ali Məclisin Sədri deyib: Nəqliyyatın inkişafı günün tələbidir. Muxtar respublikada da nəqliyyat sisteminin müasirləşdirilməsi qarşıda duran əsas vəzifədir. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq bu sahədə ardıcıl tədbirlər görülür, marşrut xətlərində fəaliyyət göstərən avtobuslar yenilənir. Bu gün təqdim olunan avtobuslar da muxtar respublikanın vəsaiti hesabına alınıb gətirilib. Yeni avtobusların alınması hesabına həm də yeni iş yerləri açılıb. Ona görə də avtobuslardan səmərəli və uzun müddət istifadə olunmalı, onlar qorunmalı, əhaliyə nümunəvi xidmət göstərilməlidir.

Ali Məclisin Sədri avtobusların xəttə buraxılması və yeni iş yerlərinin açılması münasibətilə kollektivi və sürücüləri təbrik edib.

Sonra Ali Məclisin Sədri açarları sürücülərə təqdim edib və avtobuslara baxıb. Məlumat verilib ki, yeni alınan "KİNG-LONG XMQ 52" markalı 5 avtobusun hər biri 22-si oturacaq, 20-si ayaqüstü olmaqla 42 sərnişin yerlikdir. Şəhərdaxili yollarda hərəkət üçün xüsusi dizayn olunan avtobuslar mexaniki sürət qutusu ilə təchiz edilib. Dizel yanacağı ilə işləyən avtobusların mühərriki AVRO 4 standartına uyğundur. Avtobusların geniş salonunda sərnişinlərin rahatlığı nəzərə alınıb, havalandırma yeri və 9 siyirməli şüşə, eləcə də 2 elektron məlumat tablosu quraşdırılıb.

# "XİN başçılarının görüşü həlledici sayıla bilər"

"Ermənistanda Paşinyan hakimiyyətə gəldikdən sonra Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlarda fasilə yaranmışdı. Belə təsəvvür yaranırdı ki, bütövlükdə görüşü yenidən bərpa etmək çox çətin olacaq. Çünki düşmən tərəfi danışıqlara mane olan şərtlər irəli sürürdü". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli ötən gün Azərbaycan və Ermənistan XİN rəhbərləri - Elmar Məmmədyarov və Zöhrab Mnatsakanyan arasında Brüsseldə keçirilən görüşünü şərh edərkən deyib. ATƏT-in Minsk qrupu Rusiyanın köməyi ilə danışıqlar prosesini bərpa etməyə nail olduğunu deyən politoloq söyləyib ki, ötən gün keçirilən görüş həlledici sayıla bilər: "Çünki bu görüşdən sonra tərəflərin mövqeləri aydın olacaq. Ermənistan sülh istəyirsə, indiyədək aparılan danışıqların nəticələri ilə hesablaşmalı və görüşlər seriyasını həmin silsilədən davam etdirməlidir. Amma belə görünür ki, düşmən ölkə Rusiyanın təzyiqi altında görüşlərə getsə də, bu danışıqlara tam hazır deyil. Çünki onlar danışıqlarda qondarma separatçı rejimin iştirakının təminini istəyir".



## "Danışıqlar prosesində Azərbaycanın ərazi bütövlüyünü sual altına ala biləcək iddia irəli sürmək mümkün deyil"

Avropa İttifaqı, NATO-nun dövlətlərin ərazi bütövlüyünü nəzərə alaraq, separatçı baxışlara görüşlərə son verməyə çağıran bəyanat yayımladığını xatırladan Q.Hüseynli bildirib ki, Ermənistan tərəfi beynəlxalq hüququn şərtlərini də nəzərə almaqla görür ki, Azərbaycan siyasi üstünlük qazanmaya yaxındır: "Danışıqlar prosesində Azərbaycanın ərazi bütövlüyünü sual altına ala biləcək iddia irəli sürmək mümkün deyil. Bu nöqteyi-nəzərdən deyə bilərik ki, düşmən ölkə ilə danışıqlar prosesi çətin olacaq".

## "Danışıqlarda ölkəmizin əli daha qüvvətlidir"

Politoloq qeyd edib ki, Azərbaycan ərazi bütövlüyü məsələsini haqlı olaraq təkidlə tələb etməsi, Ermənistan Dağlıq Qarabağın statusu məsələsini yenidən gündəmə gətirə bilər: "Amma bu təklif və tələblərlə danışıqları irəli aparmaq mümkün olmayacaq. Çünki Ermənistan tərəfi təcavüzkar, Azərbaycan isə təcavüzə məruz qalandır. Bu nöqteyi-nəzərdən düşmən ölkənin lovğalığı və təkəbbürlüyü üçün heç bir əsas yoxdur. Xüsusilə də bölgədə gedən dəyişiklikləri hökmən nəzərə almaq lazımdır. Beynəlxalq hüquq və onu müdafiə edən dövlət, birmənalı olaraq, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Bu da onu deməyə əsas verir ki, danışıqlarda ölkəmizin əli daha qüvvətlidir".

## "Azərbaycan hərbə hazırdır, amma Ermənistanın danışıqlardan başqa alternativ yolu yoxdur"

Ordumuzun son hərbi paradda özünün potensialını nümayiş etdirdiyini vurğulayan Q.Hüseynli qeyd edib ki, hər bir diplomatiyanın arxasında güclü hərbi potensial dayanır: " Belə olan halda, diplomatiyanın danışıqları daha kəsərli və təsirli olur. Rusiyanın son dövrlərdə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyində də müəyyən dəyişikliklər sezilir. Çünki indiyədək danışıqların davam etdirilməsində, prosesin dondurulmasında Rusiyanın da əli var. Görünür qonşu ölkə bu mövqeyindən imtina etmək fikrindədir və Ermənistana təzyiq edir. Bu baxımdan hesab edirəm ki, həm Aİ, həm də Rusiya tərəfindən edilən təzyiqlərin nə qədər effektli olduğu ötən gün Brüsseldə keçirilən XİN başçılarının görüşündə düşmən ölkənin ortaya qoyduğu mövqedən aydın olacaq. Ermənilər danışıqlarla vaxtı uzatmağa çalışmaq istəsə də, Azərbaycan mənasız və əhəmiyyətsiz olan danışıqlara getməyəcək. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi naminə hərbə hazırdır. Amma Ermənistan sülhə nail olmaq üçün danışıqlardan başqa alternativ yolu yoxdur".

Məlumat üçün nəzərinizə çatdıraq ki, ötən gün Brüsseldə Azərbaycan və Ermənistan XİN başçılarının görüşü 4 saata yaxın davam edib. Görüş əsnasında Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesi ətraflı müzakirə olunub və mövcud danışıqlar formatının davam etdirilməsi qeyd olunub. Həmçinin, danışıqlar prosesinin irəli aparılması üçün növbəti addımlara və həmsədrlərinin fəaliyyət planlarına dair fikir mübadiləsi aparılıb.

***Nailə Məhərrəmova***

# Təlimatların erməni lobbisindən gəldiyi öz təsdiqini tapdı

*Gəncə hadisələri haqqında ilk xəbərləri sevinclə yayanlar ermənilərə məxsus radio, televiziya və saytlar oldu...*

***Gəncədə icra hakimiyyətinin başçısına qarşı edilən cinayət hadisəsindən sonra iki polis zabiti də qətlə yetirildi. Bu radikal dini cərəyanların ölkəmizdə ictimai-siyasi sabitliyi pozmaq, vətəndaş qarşıdurması yaratmaq üçün atdıqları pozucu addımlardır. Söhbət etdiyimiz müsahiblərimiz pozucu radikal dini cərəyanların arxasında xarici maraqlı dairələrin, xüsusilə də, erməni lobbisinin dayandığını bildirdilər.***

Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva: **"Anti-Azərbaycan qüvvələrinin cəhdləri nəticəsiz qalacaq"**



- Anti-Azərbaycan qüvvələrinin ölkəmizdə ictimai-siyasi sabitliyi pozmaq, insanlar arasında çaxnaşma yaratmaq, siyasi hakimiyyətə təzyiqlər etmək kimi cəhdləri iflasa məhkumdur. Çünki Azərbaycanda ictimai-siyasi sabitliyin, əmin-amanlığın, dinamik inkişafın qarantı xalq-iqtidar birliyidir, vətəndaşlarımızın Prezident İlham Əliyevə olan sevgisi və dəstəyidir. Biz bunu təəssüflə haqqında danışdığımız Gəncə hadisələri zamanı da gördük. Gəncədəki təxribat xarakterli hadisələrin nəticəsində həm radikal müxalifət, həm radikal dindarlar, həm də onların havadarları bir daha Azərbaycan xalqının iqtidarına olan etimadını, dəstəyini, eyni zamanda, ölkənin ictimai sabitliyini, insanların təhlükəsizliyini təmin edən polisimizin şücaətini və qətiyyətini gördü. Azərbaycanda xaos yaratmağa cəhd edənlər birdəfəlik anlamalıdırlar ki, çox çətin sınaqlardan qətiyyətlə çıxmış xalq-iqtidar birliyini sarsıtmaq mümkün deyildir. Çünki Azərbaycan xalqı xaosu, özbaşınalığı, dağıdıcılığı hələ 1992-ci ildə AXC-Müsavat hakimiyyəti illərində görüb. Elə Gəncə əhalisi də 1993-cü ildə antimilli ünsürlərin fəaliyyəti nəticəsində küçə döyüşlərinin, silahlı hücumların və vətəndaş müharibəsinin şahidi olublar. Lakin xüsusi məqam kimi qeyd edilməlidir ki, Azərbaycan xalqı hər zaman anti-Azərbaycan qüvvələrinin təxribatlarına getməyib, iqtidarla birliyini nümayiş etdirib və ictimai-siyasi sabitliyi qoruyub.

Gəncədə də təxribat törətməyə çalışan bir qrup antimilli ünsürə insanların dəstək verməməsi, onları etdikləri hərəkətlərə görə qınaması isbatladı ki, gəncəlilər Ulu Öndər Heydər Əliyev siyasətinə sadiqdirlər, Prezident İlham Əliyevin ətrafında sıx birləşiblər. Gəncə daim vətənpərvər insanların yurdu olub və tarixdən də görürük ki, düşmənlərimizin ən çox məğlub olduğu yer, məhz Gəncə olub.

Millət vəkili Eldəniz Səlimov: **"Bu, ermənipərəst mərkəzlərin əvvəlcədən planlaşdırdıqları hadisədir"**

- Bu hadisəni, onu törədənlərin və arxasında dayananların bəraəti ola bilməz. Bu hadisə və onu törədənlər hər kəs tərəfindən pislənməlidir. Törədilən qətl hadisəsi açıq-aşkar anti-Azərbaycan güc mərkəzləri, ölkəmizi "üçüncü dünya", "banan" dövləti kimi görmək istəyən məkrli qüvvələr tərəfindən təşkil edilmiş məqsədyönlü terror hadisəsidir, dövlət çevrilişinə cəhddir və Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa yönəlib. Çox təəssüflər olsun ki, baş vermiş terror hadisəsindən dərhal sonra sosial şəbəkələrdə və bəzi internet resurslarında terrorçudan zərərçəkən obrazının yaradılmasına cəhdlərin olması, uzun illərdir Azərbaycana qarşı ermənilərlə birlikdə fəaliyyət göstərən xaricdəki passiv terrorçuların birdən-birə fəallaşması, separatçı Əlikram Hümbətovun terrorçunun hüquqlarını müdafiə komitəsi yaratması və sair kimi hadisələr, belə qənaətə gəlməyə əsas verir ki, bütün bunlar bir mərkəzdən əlaqələndirilən və ölkəmizdə xaos və qarşıdurma yaratmağı qarşılarına məqsəd qoyan ermənipərəst mərkəzlərin əvvəlcədən planlaşdırdıqları hadisələrdir. Bunu görməmək mümkün deyil. Ancaq bəziləri özlərini görməzliyə, eşitməzliyə vurur, məsələləri tam başqa səmtə yönəltməyə çalışırlar ki, bu da, heç bir halda qəbuledilən deyil, qəbul da edilmir, edilməməlidir. Yeni baş verənlərdə əsas məqsəd Yaxın Şərqin müsəlman ölkələrinə tətbiq edilən idarəolunan xaos siyasətini Azərbaycana transfer etməklə, ölkəmizi terror poliqonuna çevirmək və beləliklə, Dağlıq Qarabağ problemini birdəfəlik unutdurmaqdır. Ancaq hadisələrin inkişafı göstərdi ki, bu məkrli planı Azərbaycanda həyata keçirmək heç də o qədər asan məsələ deyil. Bunlar heç də alınan və baş tuta biləcək məsələlər deyil. Çünki hər şeydən öncə, Azərbaycanda funksional dövlət institutları, kifayət qədər səmərəli fəaliyyət göstərən mərkəzi icra hakimiyyəti orqanları və nəhayət, əmin-amanlığı təmin etməyə qadir olan hüquq-mühafizə orqanları var. Ən əsası isə, Azərbaycanda artıq ciddi sınaqlardan çıxmış xalq-iqtidar birliyi mövcuddur. Elə ölkəmizdə sabitliyin əsasında da Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan xalqının iradəsi dayanır. Kim bu iradəyə qarşı çıxacaqsa, mütləq layiqli cəzasını alacaq. Çünki xalqımız bir daha ötən əsrin 90-cı illərinə, vətəndaş müharibəsinə, torpaqlarımızın itkisi ilə müşahidə olunan xaosa qayıtmaq istəmir və buna heç vaxt yol verməyəcək. Bu gün güclənən Azərbaycan heç vaxt indiki qədər öz ərazi bütövlüyünü bərpa etməyə yaxın olmayıb. Azərbaycan Ordusu heç vaxt indiki qədər nizamlı, döyüş qabiliyyətli və indiki qədər həm texniki təchizat, həm də döyüş hazırlığı baxımından düşmən ordusundan bu qədər üstün olmayıb. Xalqımızın düşmənlərini də narahat edən elə budur. Ona görə də, ölkəmizdə yeni vətəndaş müharibəsi və yeni terror poliqonu yaratmağa çalışırlar. Ancaq Azərbaycan polisi, bir daha sübut etdi ki, o öz canı bahasına olsa belə, dövlət və millət qarşısında şərəfli vəzifəsini yerinə yetirməyə hazırdır. Bir daha baş verən son hadisəni, terror aktını, onu törədənləri və arxasında dayananları lənətləyərək, həmin qüvvələrin tezliklə tam şəkildə, son nəfərinəcən aşkarlanaraq, layiqli cəzalarını almalarını arzu edirik və inanırıq da ki, bu, belə olacaq. Azərbaycan dövləti stabildir, güclüdür, qüdrətlidir və heç kim də onu yolundan və hədəfindən döndərə bilməz.



Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev: **"Çalışmalıyıq ki, "düşmən dəyirmanına su tökənlərdən" olmayaq..."**

- Yeni əsr Şərq ölkələri üçün düşərli olmadı. İraq, Liviya, Suriya və Yəmən "cəhənnəm adaları"na çevrildi. 2016-cı ilin elə bu ayında qardaş Türkiyənin başına oxşar oyunu açmaq istədilər, amma türk xalqının Vətən uğrunda canından keçmək əzmi xain oyununu pozdu. Şərqdəki təlatümlər fonunda Azərbaycana "sabitlik adası" desək, yəqin ki, yanılmarıq. Lakin hadisələrin gedişi göstərir ki, ölkəmizdəki bu sabitliyi xalqın əlindən almağa çalışan qüvvələr yatmayıblar...



Dünyada gedən pərdəarxası qlobal mübarizələrin mahiyyətini dərindən bilən dahi siyasətçi Heydər Əliyev deyirdi: "Təsadüfi heç nə yoxdur". Bu nəzər nöqtəsindən yanaşsaq, tam əminliklə demək mümkündür ki, Gəncədə baş vermiş son kriminal olaylar heç də təsadüfi xarakter daşımır. Arxasında, hələlik, bizə dəqiq bəlli olmayan hansısa qüvvənin, xüsusi təşkilatın durduğu bu hadisə əvvəlcədən planlaşdırılmış fəaliyyətin nəticəsidir. Bəs ölkədə sabitliyin, asayişin pozulmasına hesablanmış bu terror aksiyasının arxasında kimlər dura bilər? Ümumiləşdirilmiş şəkildə bu sualın cavabı belədir: müstəqil, suveren bir dövlət olan Azərbaycanın mövcudluğunu istəməyən qruplar bu terror əməlinin arxasında dayanıblar. Təsadüfi deyil ki, Gəncə hadisələri haqqında ilk xəbərləri sevinclə yayanlar ermənilərə məxsus radio, televiziya və saytlar oldu... Hadisələrin mahiyyətini daha dərindən anlamaq üçün Azərbaycanda son dövrdə baş verənləri xatırlatmaq lazım gəlir. Bir neçə ay əvvəl olduqca sakit şəraitdə prezident seçkiləri keçirildi və həm daxildəki, həm də xaricdəki qüvvələr, nə qədər cəhd etsələr də, ölkədəki sabitliyi poza bilmədilər. Ardınca, əsrin ən böyük təbii qaz ixracı layihəsi olan "Cənub Qaz Dəhlizi" və onun tərkib hissəsi olan TANAP-ın möhtəşəm açılışı gerçəkləşdi. Daha sonra isə Naxçıvanda on bir min hektar ərazi düşmənin işğalından azad edildi və bu hadisənin şahidi olan bayraq Bakıdakı hərbi paradda nümayiş etdirildi. Eyni zamanda, parad göstərdi ki, yaxın gələcəkdə qələbə rəmzinə çevrilən belə bayraqların sayı çoxalacaq.

Gəncədə baş verən terror hadisəsi düşmənin xeyirinə olan aksiyadır. Təsadüfi deyil ki, Gəncə hadisələri haqqında ilk xəbərləri sevinclə yayanlar ermənilərə məxsus radio, televiziya və saytlar oldu...

Bu hadisə Azərbaycanın dövlətçiliyi, milli maraqları, təhlükəsizliyi, asayişi, sabitliyi, rifahı, bu günü və gələcəyinə vurulan zərbədir. Amma Azərbaycan xalqı ayıqdır və Gəncədə iğtişaşa çağırışların arxasındakı mahiyyəti başa düşdüyündən, aksiyaya dəstək vermədi. Gəncə polisi isə iki şəhid verməsinə baxmayaraq, mətinliklə vəzifəsinin öhdəsindən gəldi və qısa vaxt ərzində, asayişi bərpa etdi."

Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov: **"Azərbaycan dövlətçiliyinə xəyanət etmiş insanlardan istifadə edirlər"**

- Gəncədə baş vermiş cinayət hadisəsindən sonra bir çox anti-Azərbaycan qüvvələr öz çirkin məqsədləri naminə bu olaydan istifadə etməyə başlayıb. Xüsusilə, sosial şəbəkələrdə aktivlik edən bu qüvvələr əhalini çaşdırmağa və stabilliyi pozmağa cəhdlər edirlər. Burada düşmən ölkə Ermənistanın və bəzi ölkələrin xüsusi xidmət orqanlarının fəaliyyəti özünü göstərir. Onlar vaxtilə Azərbaycan dövlətçiliyinə xəyanət etmiş insanlardan istifadə edirlər. Fakt olaraq yediyi çörəyə vətəninə xəyanət edərək, Ermənistana sığınıb açıq anti-Azərbaycan fəaliyyəti ilə məşğul olan şəxslərin çağırışlarını göstərmək olar. Təbii ki, Azərbaycan vətəndaşı bunu görür və bu təxribatlara uymur. Həmçinin, bəzi ölkələrin himayəsində olan radikal dini cərəyanların da fəaliyyəti burada qabarıq tərzdə müşahidə olunur. Hiss olunur ki, bu qüvvələrdən istifadə etməklə sadə dindar əhalini çaşdıraraq öz niyyətlərini həyata keçirməyə çalışırlar. Lakin Azərbaycan dindarları bu çirkin planın həyata keçməsində vasitə olmayacaqlar. Azərbaycan xalqı dinindən və dilindən asılı olmayaraq öz prezidentinin yanındadır ona və apardığı siyasətə inanır. Xalq bu gün başa düşür ki, Azərbaycanın və onun dünyadakı mövqeyi gücləndikcə, bizim düşmənlərimiz də artır. Məhz bunun nəticəsidir ki, iyulun 10-da Gəncədə pozuculuq aksiyalarına çağırışa çox az sayda elə həmin qüvvələrin təsirində olan radikal dini təriqətlərin üzvləri, kriminal aləmin nümayəndələri və təxribatçılar çıxdı. Xalqıma müraciət edərək, bəyan edirəm ki, heç bir təxribata uymasınlar, müstəqilliyimizin qısa yolunda bu cür sınaqlardan xalqımız həmişə şərəflə çıxmışdır. Ötən əsrin 90-cı illərində Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə dönüşü ilə xalqımız öz lideri ilə birgə Azərbaycan dövlətçiliyini qorudu və onun düşmənlərini yerində oturtmağı bacardı. Azərbaycan, məhz bundan sonra aparılan siyasətlə güclü dövlətə çevrilməyə başladı. Bu gün də Hörmətli Prezidentimiz İlham Əliyevin apardığı siyasət dövlətimizi gücləndirmiş beynəlxalq miqyasda Azərbaycanı tanıtmışdır. Məhz Azərbaycanın güclənməyini istəməyən bəzi qüvvələr yenidən pozuculuq və xaos yaratmağa cəhd edirlər. Məqsədləri birdir: Azərbaycanı zəifləmək və dövlətçiliyimizi məhv etmək. Bir xalq olaraq buna qarşı qətiyyətli olmalı prezidentimizin ətrafında sıx birləşməli düşmənlərimizin xain planlarına qarşı hər birimiz sərt mövqedə olmalıyıq. Azərbaycan dövləti və Ordusu bu gün Qarabağımızı azad etməyə tam hazırdır və bunu başa düşən düşmən qüvvələr, məhz indi aktivləşmişlər. Ermənistan hakimiyyət böhranı yaşayır, və düşmənə böhrandan çıxmaq üçün vaxt lazımdır. Azərbaycan Ordusu start vəziyyətindədir. Erməni havadarları da bunu görür. Azərbaycanın daxildən başını qatmağa çalışırlar. Daxili pozğunluq yaratmaqla bizi hədəfdən yayındırmağa cəhd edirlər. Lakin onların bu alçaq planları boşa çıxacaqdır. Azərbaycanda daxili stabillik möhkəmdir, onu qoruyan güclü qüvvələrimiz və qətiyyətimiz var. Yolumuz güclü Azərbaycan və azad olunacaq Qarabağ yoludur. Bu yoldan bizi heç kim döndərə bilməz. Həlak olan polislərimizə Allahdan rəhmər diləyirəm. Tanrı bu gün Azərbaycanda stabilliyimizi qoruyan polis əməkdaşlarımızı və səngərdəki əsgərlərimizi qorusun.



**GÜLYANƏ**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

13 iyul 2018-ci il

# Şəhidlər ölmürlər, din pərdəsi altındakı oyunbazlar ölüdürlər

***Gəncədə baş verən hadisələr ictimaiyyətin haqlı olaraq narazılığına və hiddətinə səbəb olub. Hər bir Azərbaycan vətəndaşı bu hadisələrə hüquqi qiymət verilməsini istəyir və günahkarların cəzalandırılacağına əmindir. Ölkədə qarmaqarışıqlıq salmağa, iğtişaşlar yaratmağa, təxribatlar törətməyə maraqlı olan qüvvələrin ifşa olunması və layiqli tərzdə cəzalandırılması indi bütün Azərbaycan ictimaiyyətini maraqlandırır.***

Acı sonluğa görə, polisin aksiyada vurulmasına görə bəzi müxalif qüvvələrin belə təəssüf hissi keçirdiyini bəyan etməsinə rağmən başa düşməsi lazımdır ki, millətin başına gələ bilən fəlakətlərə rəvac vermək bu sonluğu doğura bilər. Başa düşmək lazımdır ki, polis də kiminsə balasıdır, qardaşıdır. Balaları yetim, anaları ağlar qala bilər. Nə vaxtdan adam öldürmək və vəhşilik demokratiya hesab olunub? Polisə qarşı antipatiyanı təlqin edən kimdir? Asayiş keşikçisini iqtidarın adamı, qulluqçusu, hətta qulu və millətin düşməni kimi təqdim edən kimdir? İqtidardırmı? "Polis aksiya iştirakçılarını əzir" deyib indi rəhmət oxumaq nəyə oxşayır?

Məmur özbaşınalığını bəyənən yoxdur və adi vətəndaşdan tutmuş, iqtidar nümayəndələrinə qədər hər kəs bunu pisləyir və bunu bəhanə edib, iğtişaş törətmək bu xalqa lazımdır, yoxsa iqtidara? Yaxud polisi qətlə yetirmək Elmarı cəzalandırmaq hesab oluna bilər, yoxsa iqtidarı? Absurd ittihamlar səsləndirməklə, arqumentsiz və şər-şəbədədən ibarət bəyanatlarla yenə də antipatiya yaradan kimdir? Yaxud iğtişaş törədilməsində iqtidarmı maraqlıdır, xalqmı maraqlıdır, yoxsa radikallar? Ölkənin Suriyaya çevrilməsini arzulamaq, buna çalışmaq ağlasığan deyil. Hər kəs, ən sadə vətəndaşdan tutmuş iqtidara və müxalifətə qədər hamı bunun əleyhinə olmalıdır.

## Adam öldürmək, vəhşilik demokratiya hesab oluna bilməz və bu əməl nə müsəlmanın, nə də bu millətin əqidəsinə uyğun gəlmir

Adam öldürməklə və vəhşiliklə demokratiya bir müstəvidə qərarlaşa bilməz. Aksiya keçirmək, adam öldürmək və qətl törətməklə bir deyil. Söz azadlığı xaos və vandallıq demək deyil. Əgər kimsə günahkardırsa, bunun cəzası kəsicideşici alətlə yox, qanunvericiliklə, konstitusiya ilə verilməlidir. Belə şəxsi mühakimələr, kiməsə xəsarət yetirilməsinə, əlbəttə ki, ən azından, vətəndaşlarının təhlükəsizliyinin təminatı naminə dövlət biganə qalmamalıdır və qalmayacaq da. Dövlət vətəndaşların təhlükəsizliyinin qarantıdır və nəinki polis nəfərinə, hətta hər bir şəxsə qarşı törədilən cinayət əməllərinə görə təqsirlilər tapılıb hüquqi yolla cəzalandırılmalıdır. Cəzalandırılmalıdır ki, hər kəs qanun qarşısında öz məsuliyyətini dərk etsin və ölkə vətəndaşlarının asudə yaşayışı təmin olunsun. Azərbaycan ictimaiyyəti də dövlətdən, məhz bunu gözləyir və inanır ki, cinayət əməllərinə görə hər kəs öz cəzasını alacaq.

Adam öldürmək, qətl törətmək nə müsəlmanın, nə də bu millətin əqidəsinə uyğun deyil. Birinin digərini qətlə yetirməsi beynəlxalq hüquq normalarına da, Azərbaycan Konstitusiyasına da ziddir və bu, hər bir halda, qanun pozuntusu hesab olunur. Azərbaycan xalqı qanunlara hörmətlə yanaşır və müstəsna halları nəzərə almasaq, qətl hadisələri bizim üçün yaddır. Azərbaycan vətəndaşının öz həmvətəninin, ələlxüsus, polisin canına qıymasına inanmaq belə olmur. Görünür, Gəncə hadisələri, polisin qətlə yetirilməsi xarici təsirlərin təzahürüdür və Azərbaycanı gözü götürməyən qüvvələrin növbəti təxribatı, cirkin niyyətləri və planları bu dəfə Gəncədə özünü büruzə verdi.

## Yenə də Fars-molla rejiminin mənfi təsirləri, yenə də ölkəmizdə İranın təxribatları hiss olunur

Vurmaq, döymək, şallaqlamaq, bəllidir ki, hardan qaynaqlanır və hüquq normalarının pozulması bir tərəfə, ən adi səhvə görə şallağın, yəni cismani cəzanın hardan idxal olunduğunu da hamı çox yaxşı bilir. "Əlif zəbər ə, bey zəbər bə, tey zəbər tə" deyə bilməyənlərin, yaxud demək istəməyənlərin aqibətinin necə olduğu heç kəsin yaddaşından silinən deyil. Əcnəbilərin seyrə balonlarla çıxdığı bir zamanda mollaların din adından istifadə etməklə, əslində isə, dinə heç bir aidiyyəti olmayan cəhaləti, qəddarlığı və cismani cəzaları insanlara aşılanmasında molla rejimindən başqa kimin imzası ola bilər? Orucu Ramazanda tutan, iki gözü qazanda qalan uşağı yazı yazanda kim döyə bilər? Analoji olaraq indi bu vurmaq, yaralamaq, bıcaqlamaq kimi cismani cəzaların, şəxsi mühakimələrin arxasında kimlərin dayana biləcəyini məntiqi olaraq təyin etmək çətin deyil. Yenə də Fars, yenə də molla rejiminin mənfi təsirləri, yenə də ölkəmizdə İranın təxribatları hiss olunur.

Qubada, Zaqatalada, Nardaranda və nəhayət, Gəncədə baş verən hadisələrin dini komuflyaj altında cərəyan etməsi, hadisələr zamanı zorakılıq, cismani cəza və bu kimi oxşar halların təkrarlanması təsdiq edir ki, bu hadisələr eyni mənbədən qaynaqlanır. Qarışıqlıqlar və təxribatlar zamanı hansı daşı qaldırsalar, altından ilan kimi, məhz İran çıxır. Hər dəfə bir məsələni ortaya atan, müxtəlif yerlərdə çaxnaşmalar törədən təxribatçıları nə hicab maraqlandırıb, nə də indi Gəncənin icra başçısı Elmar Vəliyevin məmur özbaşınalığı. Başından güllə yarası alan, indi onsuz da canı hayında olan icra başçısı bu silahlı hücumdan bir müddət sonra süni olaraq yaradılan iğtişaşların fərqində belə olmayacaq haldadırsa, bu çaxnaşmanın hara hədəfləndiyinin və müəllifinin kimlər olduğunu təxmin belə etmək çoxmu çətindir?





Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki İlqar Balakişiyev və Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Səməd Abbasov asayişin qorunması, təhlükəsizliyin bərpa edilməsi üçün canlarını fəda ediblərsə, onlar ölməyiblər, şəhid olublar. Şəhidlər ölməzlik məqamına sahibdirlər və bu gün çirkin niyyətli aksiyaların ideya müəllifləri bunu yaxşı bilməlidirlər. Bilməlidirlər ki, şəhid olanlar yox, Kefli İsgəndərin monoloqunda deyildiyi kimi, Şeyx Nəsrullahların marianetinə çevrilənlər, din pərdəsi altında min bir hiylə və məkrli niyyətlərlə ortaya atılan mollalar və oyunlarına alət olanlar özləri ölüdürlər.





Qətl hadisəsi törədən insan dini inancını da, əqidəsini də şübhə altında qoyur və qəlbundə Allah xofu olan, yaxud öz imanına hörmət edən kimsə belə bir addımı atmaqdan mütləq çəkinər. İslam dini səbir etməyi, səbirli olmağı, mərhəmət hissini, rəhimli olmağı aşılayır. Sağlam dini dünyagörüşü olan insanlar belə edə bilməzlər. Qətli törədən və polisə qıyan kəslərin, nəinki müsəlman, hətta azərbaycanlı olması belə şübhə doğurur. Xəsarət yetirmək, öldürmək terror hadisəsi hesab olunur və müsəlman terrorçu ola bilməz. Həmçinin, azərbaycanlı kimsənin terrorçu kimi qeydə alınmasının şahidi olan belə olmayıbsa, cinayətkarların kimliyi özü də çox müəmmalıdır.

Azərbaycanda sabitliyi pozmaq istəyən hər kəsin Azərbaycan qanunları qarşısında cavab verməsi vacibdir və hüquq-mühafizə orqanları bu məsələ ilə bağlı lazımi tədbirlər görürlər. Heç şübhə yoxdur ki, həmin insanlar öz layiqli cəzalarını alacaqlar. Bu, Gəncədə iğtişaş törətmək cəhdi, dövlətçiliyə qarşı yönəlmiş hərəkətdir. Bu, Azərbaycanda sabitliyin pozulmasına hesablanmış əməl və xarici qüvvələrin törətdiyi təxribatdır. Hər kəs öz törətdiyi cinayətə uyğun olaraq, adekvat cavabını alacağına zərrə qədər şübhə ola bilməz.

Azərbaycandakı ictimai-siyasi qüvvələr, QHT-lər, dini qurumlar, bir sözlə, hər kəs bu hərəkətləri pisləyir. Azərbaycan cəmiyyəti Azərbaycan dövlətinin və hökumətinin yanında olduğunu bəyan edir. Bu, tək Gəncə ilə bağlı məsələ deyil və Azərbaycan dövlətçiliyinə qarşı yönəlmiş bir təxribatdır. Məhz buna görə də, hər kəsin bu hadisədə öz mövqeyini ortaya qoyması çox zəruridir. Xalqın hər bir nümayəndəsi indi dövlətimizin yanında olmalıdır ki, müstəqilliyimizi və inkişafımızı birgə qoruya bilək.

***İnam İMRANOĞLU***

# Azərbaycanın yeni tarixinin başlanğıcı - 14 iyul 1969-cu il!

## Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev epoxasının müstəsna yeri və rolu var

***1969-cu il iyulun 14-də Azərbaycanın yeni tarixinin başlanğıcının əsası qoyuldu. Həmin gün, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu keçirildi və Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçildi. Ulu Öndər Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsindən 49 il ötür. Bu illər ərzində ölkəmizin inkişafında, beynəlxalq aləmdə imicinin daha da möhkəmlənməsində, xalqın sosial-rifah halının yaxşılaşdırılmasında və dövlətimizin gələcək strategiyasının müəyyənləşdirilməsində həyata keçirilən tədbirlər göz önündədir. Məhz 49 il əvvəl respublikamızda yeni inkişaf mərhələsinin əsası qoyuldu və iqtisadiyyatımız tənəzzüldən inkişafa doğru istiqamət götürdü. Belə ki, Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev epoxasının müstəsna yeri və rolu var. Dünya şöhrətli siyasi xadim Heydər Əliyev öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaradıb. Azərbaycanın dünyaya tanıdılması, nüfuzunun yüksəklərə qaldırılması və beynəlxalq aləmə inteqrasiyası Ulu Öndərin adı ilə bağlıdır. Dahi şəxsiyyət 34 ilə yaxın bir dövrdə Azərbaycana rəhbərlik edib, 5 ildən artıq SSRİ kimi böyük bir dövlətin rəhbərlərindən biri olub.***



***Muxtar NAĞIYEV, YAP Səbail rayon təşkilatının sədrinin birinci müavini***

Görkəmli dövlət və siyasi xadim Heydər Əliyev respublikaya rəhbərliyə başladığı ilk gündən qarşıya qoyduğu prioritet məsələ Azərbaycanın iqtisadiyyatını möhkəmləndirmək, onun şöhrətini, nüfuzunu yüksəklərə qaldırmaq, milli mənafeyini, milli mentalitetini, mədəniyyət və mənəviyyatını qorumaq və inkişaf etdirmək olub. Ulu Öndərin bir- birinin ardınca həyata keçirdiyi mühüm əhəmiyyətli tədbirlər nəticəsində Sovet hakimiyyəti dövründə respublikamız keçmiş SSRİ-də bütün sahələrdə öncül yerlərdən birinə çıxıb. Sosial-iqtisadi və mədəni sahələrdə aparılan islahatlar və uzaqgörən siyasət nəticəsində, qazanılan nailiyyətlər ölkəmizin dövlət müstəqilliyi dövrü üçün mühüm sosial-iqtisadi və mədəni baza, təməl rolunu oynayıb.

Heydər Əliyev uzaqgörən, müdrik siyasətçi olduğunu hələ ölkəyə ilk dəfə rəhbərlik etdiyi 1969-82-ci illərdə sübut edib. Həmin illərdə Azərbaycanda dövlət quruculuğunda , iqtisadiyyatın, elmin, mədəniyyətin, ümumilikdə, həyatın ən müxtəlif sahələrində böyük nailiyyətlər qazanılmış, coşqun bir tərəqqi dövrü yaşanıb. Məhz bu illərdə milli və mənəvi dəyərlərin qorunub-saxlanılmasında, dövlətçilik, adət - ənənələrimizin inkişafı istiqamətində əməli addımlar atılmış, xalqın intellektual keyfiyyətlərinin meydana çıxması üçün əsaslı zəmin yaradılıb. XX əsrin 50-60-cı illərində respublikada milli-mənəvi dirçəliş istiqamətində bir sıra ehtiyatlı addımlar atılsa da, bu sahədə məqsədyönlü iş Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçildiyi vaxtdan başlandı. Respublikanın rəhbəri kimi Heydər Əliyev ilk gündən uzaqgörənliklə bütün dövlət hakimiyyəti orqanlarının işini xalqın iqtisadi və sosial-mədəni tərəqqisinə, milli dirçəliş siyasətinin reallaşmasına yönəltdi. O, mahir siyasi xadim kimi milli oyanışın və gələcək müstəqilliyin möhkəm təməlini qoydu.

Heydər Əliyev şəxsiyyəti, Onun idarəçilik istedadı ilə sıx bağlı idi. Ümumiyyətlə, 1970-1985-ci illər yeni Azərbaycan tarixinə quruculuq illəri kimi daxil oldu. Ölkə həyatında baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan köklü struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının yüksəlməsinə görə respublikamız İttifaq miqyasında böyük şöhrət qazanmışdı. Bu dövrdə respublika iqtisadiyyatında böyük bir canlanma baş verdi. Yüzlərlə zavod və fabriklər inşa edildi, yeni istehsalat sahələri yarandı. Neft və neft avadanlıqları, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, tikinti materialları, məişət kondisionerləri, avtomobil hissələri, mineral gübrələr, çini-saxsı qablar, xalça və xalçaçılıq məmulatları istehsalı üzrə Azərbaycan keçmiş SSRİ-də ön sıraya çıxdı.

Məhz bu məqsədyönlü siyasətin məntiqi nəticəsi kimi, sovet ideologiyasının tüğyan etdiyi bir vaxtda Heydər Əliyev ana dilinin inkişafını xüsusi diqqət mərkəzində saxladı, Azərbaycana fikir plüralizmi, demokratik və azad düşüncə tərzi, güclü sosial ədalət duyğusu və milli özünüdərk hissi gətirdi. O dövrdə keçmiş İttifaqın aparıcı elm və təhsil ocaqlarına göndərilən gənclərimiz zəruri ixtisaslara yiyələndi, güclü və zəngin milli kadr ordusu yaradıldı. Milli hərbi kadrların yetişdirilməsi üçün Azərbaycanda hərbi məktəblərin açılmasına nail oldu. Bu dövrdə əldə edilmiş nailiyyətlər gələcəkdə müstəqil Azərbaycan dövlətinin qurulması üçün əsaslı zəmin yaratdı.

Azərbaycan dilinin ölkənin dövlət dili kimi elan edilməsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin çox böyük xidmətləri olub, özü də sərt sovet rejimi dövründə. Heydər Əliyev dövlət dili sahəsindəki fəaliyyətinə - ana dilinin inkişafı, qorunub-saxlanılması və dövlət dili səviyyəsinə qaldırılmasına ölkəyə rəhbərliyə gəldiyi ilin (1969) ilk günlərindən başlayıb.

Azərbaycan ədəbi və xalq danışıq dilini dərindən bilən, bu dilin zəngin lüğət tərkibinə yaxşı bələd olan və qrammatik imkanlarından fitri istedadı sahəsində səmərəli istifadə etməyi bacaran Heydər Əliyev yüksək səviyyəli yığıncaqlarda, konfranslarda yüksək dövlət səviyyəsində aparılan müşavirələrdə və tədbirlərdə ana dilində parlaq çıxışlar edərək, özünə böyük hörmət və məhəbbət qazandı. Ulu Öndər çox yaxşı bilirdi ki, Onun qazandığı bu böyük hörmət və məhəbbət, eyni zamanda, Onun istifadə etdiyi, danışdığı dilə - Azərbaycan dövlət dilinə çox böyük hörmət və məhəbbət yaradır. Bütün bunlar, təbii olaraq, ölkədə güclü bir dövlət dili ab-havası yaratmağa xidmət edirdi.

1977-1978-ci illər respublika rəhbərini çətinliklər qarşısında qoydu. Məlum olduğu kimi, 1977-ci ildə SSRİ-nin Yeni konstitusiyası qəbul edildi. Həmin Konstitusiya bütün respublikalarda hazırlanan yeni konstitusiyalar üçün bir nümunə rolunu oynamalı idi və faktiki olaraq, oynayırdı. Bu konstitusiyada isə əvvəldən dövlət dili haqqında maddə yox idi. Ayrı-ayrı respublikalarda qəbul edilmiş konstitusiyaların heç birində həmin maddə öz əksini tapmadı.

Azərbaycanda isə vəziyyət başqa cür idi. Heydər Əliyev ana dilinin dövlət dili olması uğrundakı mübarizəsini davam etdirirdi. Respublikanın rəhbəri ziyalıları, bütün xalqı ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb edərək, var qüvvəsi ilə çalışdı, bütün çətinliklərə və maneələrə əzmlə sinə gərdi.

1978-ci il aprel ayının 2-də doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanunun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş yeddinci sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə konstitusiyanın 73-cü maddəsini aşağıdakı redaksiyada vermək təklif olundu: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Kommunist Partiyasının tüğyan etdiyi bir vaxtda belə bir maddənin əlavə edilməsi çox böyük risk idi. Hər an Ulu Öndərə millətçi damğası vurmaq təhlükəsi yaranmışdı. Ancaq müdrik şəxsiyyət bütün bunlardan qorxmadı, ana dilinə olan məhəbbəti, milli təəssübkeşliyi hər şeyi üstələdi. Heydər Əliyev Azərbaycan dövlət orqanlarında, ictimai orqanlarında, maarif idarələrində və başqa idarələrdə Azərbaycan dilinin işlədilməsini təmin edir və onun hərtərəfli inkişafına dövlət qayğısı göstərirdi.

1978-ci il konstitusiyası, həqiqətən, Heydər Əliyevin öz dövləti, öz xalqı və öz vətəni qarşısında göstərdiyi böyük xidmət idi.

Müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq referendumunda qəbul edilmiş yeni Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi öz layiqli yerini tutmasının əsası, məhz Sovet İttifaqı dövründə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdu. Heydər Əliyev harada çalışmasından asılı olmayaraq, həmişə xalqına və Vətəninə sədaqətlə qulluq etmiş, doğma Azərbaycanla heç vaxt əlaqələrini kəsməyib. O, Moskvada SSRİ rəhbərliyində təmsil olunduğu dövrdə də respublikanın inkişafı üçün əlindən gələni əsirgəmirdi. Heydər Əliyev çox qısa bir vaxtda idarəçilik və dövlətçilik məharəti nümayiş etdirərək, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi ona həvalə olunmuş bütün sahələr üzrə irəliləyişə nail olurdu. Bu, Onun xarizmatik şəxsiyyəti və özünəməxsus fərdi keyfiyyətləri ilə bağlı idi. Bu istedadlı dövlət xadiminin fəaliyyəti təkcə Sovet İttifaqında deyil, hətta onun hüdudlarından kənarda da geniş əks-səda doğurmuşdu. Azərbaycana rəhbərlik etdiyi illər ərzində minilliklər boyu əldə edilməsi mümkün olmayan arzu və istəkləri gerçəkləşdirməyi bacaran Heydər Əliyevə bütün bunları həyata keçirməyə Onun Vətənə, xalqa, torpağa hədsiz məhəbbət və sədaqət hissi, qurub - yaratmaq amalı kömək etmişdi. Ulu Öndər Azərbaycanın inkişafı və çiçəklənməsi, əhalisinin rifah halının daha da yüksəlməsi üçün bütün imkanlardan istifadə etmişdi.

SSRİ - nin süqutundan sonra müstəqillik qazanmış Azərbaycan ilk illərdə anarxiya, xaos və tənəzzül içərisində boğulurdu. Ölkəmizin təbii sərvətlərinə göz dikmiş digər dövlətlər respublikamızda yaranmış anarxiya və özbaşınalıqdan istifadə edərək, min hiylə və məkrə əl atır və Azərbaycanı öz maraqları çərçivəsində kiçik xanlıqlara parçalamaq istəyirdilər. Xalq yaranmış ağır vəziyyətdən çıxış yolunu Ulu Öndər Heydər Əliyevdə gördü və yenidən Azərbaycana rəhbərlik etmək üçün ondan təkidlə xahiş edildi. Ömrünün qalan hissəsini də xalqına, millətinə, Vətəninə həsr etməyə hazır olduğunu bəyan edən Ulu Öndər respublikaya rəhbərlik etməyə razılıq verdi. Bununla da, xalqımız məhv olmaq təhlükəsindən xilas edildi və öz nicat yolunu tapdı. Müdrik şəxsiyyət Heydər Əliyev öz işıqlı əməlləri ilə müstəqilliyimizin bərpasında, möhkəmləndirilməsində və ölkəmizin dünya miqyasında tanınmasında müstəsna xidmətlər göstərmişdir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin bəyan etdiyi kimi, "Azərbaycanda Heydər Əliyev siyasətinə alternativ yoxdur və bu siyasət respublikamızın uğurlu inkişafının əvəzsiz təminatıdır. Heydər Əliyev yenidən respublikamızda rəhbərliyə xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda tarixin olduqca mürəkkəb məqamında qayıtmışdı. Yalnız siyasi müdrikliyi, polad iradəsi, dövləti idarəetmə bacarığı, istedadı sayəsində, O, qarşıya çıxan bütün maneələri dəf etmiş, xalqı düşdüyü bəlalardan çıxarıb, qoruya bilmişdi. Böyük Öndər müasir dünyanın ziddiyyətli reallıqlarına dərindən bələd olan bir siyasi xadim kimi, ilk növbədə, beynəlxalq müstəvidə əlaqələrin qurulmasına, beləliklə də, dünya dövlətlərinin diqqətini iqtisadi cəhətdən əlverişli olan Azərbaycana yönəltməyə nail olmuşdur. Onun hakimiyyətə gəlişi müstəqil respublikamızda yeni bir tarixi mərhələnin əsasını qoydu. Ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi istiqamətində əhəmiyyətli addımlar atıldı".

Ümummilli Liderin şəxsi təşəbbüsləri, gecəli-gündüzlü zəhməti sayəsində ölkədə demokratik islahatlara start verildi. Çünki bunlarsız dünyəvi-hüquqi və demokratik dövlət qurmaq mümkün deyildi.

Hazırda Azərbaycan dünyanın inkişaf etmiş demokratik dövlətləri sırasına qoşulub. Ölkəmizin dünya birliyində mövqelərinin getdikcə möhkəmlənməsi, reytinqinin artması və əlaqələrinin getdikcə genişləndirilməsi Heydər Əliyev siyasi xəttinin məntiqi nəticəsidir. Sevinirik və fəxr edirik ki, bu siyasi kursu Ulu Öndərin ən layiqli davamçısı Möhtərəm Prezidentimiz İlham Əliyev kimi praqmatik düşüncəli, yüksək intellektual təfəkkürə malik uzaqgörən bir şəxsiyyət davam etdirir. Məhz dövlətimizin başçısının həyata keçirdiyi düşünülmüş daxili və xarici siyasət nəticəsində, Azərbaycan dünya birliyində sayılıb - seçilən və söz sahibi olan demokratik dövlətə çevrilib. Ölkəmiz dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının tədbirlərinin keçirildiyi məkana çevrilib. Bu, Azərbaycanın iqtisadi qüdrətinin sürətli artımının nəticəsidir. Bu gün hər bir Azərbaycan vətəndaşı Heydər Əliyevin əziz xatirəsini qəlbində yaşadır və iftixarla deyir ki, bəli, Ulu Öndərimiz müstəqil Azərbaycan dövlətinin xilaskarı və memarı daim yaşayır və həyat durduqca yaşayacaqdır!

# "Heç bir qüvvə Azərbaycan xalqının birliyini sarsıda bilməz"!

## Azərbaycan ictimaiyyəti təxribatçı qüvvələrin Azərbaycanda sabitliyi pozmaq cəhdlərini qətiyyətlə pisləyir

### Akademik İsa Həbibbəyli: "Azərbaycan dövləti sabitliyin möhkəm və etibarlı qarantıdır"



Müasir, müstəqil Azərbaycanın inkişafının ən mühüm amillərindən biri, daha doğrusu, birincisi ölkədə dövlət səviyyəsində ictimai-siyasi sabitliyin qorunub saxlanılması və möhkəmləndirilməsidir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş sabit ictimai-siyasi mühit Prezident İlham Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində daha da möhkəmləndirilərək böyük inkişafa geniş meydan açıb. Ona görə də, ictimai-siyasi sabitlik müstəqil Azərbaycan dövlətinin ən mühüm nailiyyəti deməkdir və qazanılan böyük uğurların əsasını təşkil edir.

Son günlərdə Gəncədə baş verən hadisələr, ölkəmizdə ictimai-siyasi sabitliyin pozulmasına yönəldilib. Sabitliyin hədəfə alınması, çaşqınlıq, xaos yaratmaq və pozuculuq cəhdləri müstəqil dövlətimizin inkişafını gözü götürməyən, buna dözə bilməyən qüvvələrin məqsədyönlü niyyətlərinin ifadəsidir. İndi düşmən qüvvələr qatilləri, terrorçuları din qəhrəmanı kimi qələmə verməyə çalışırlar. Amma unudurlar ki, ölkəmizdə din-dövlət münasibətləri yüksək səviyyədə tənzimlənir. Azərbaycan multikultural və tolerant ölkədir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri iyulun 10-da Gəncədə baş verən hadisələrə münasibət bildirən Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli söyləyib.

Akademik deyib ki, Gəncə hadisələrində polisin hədəf kimi seçilməsi də təsadüfi deyil. Çünki Azərbaycan polisi müstəqilliyimizin bütün inkişaf mərhələlərində dövlətimizə sədaqətlə xidmət edib. Bu gün Azərbaycan polisinə əl qaldırmaq, atəş açmaq sabitliyin əsas təminatçısı olan polisimizi sarsıtmaq, ictimai rəydə bu inzibati orqanın gücü haqqında formalaşmış müsbət imici aşağılamaq məqsədi daşıyır. Hadisə nə qədər ağır olsa da, sınaqlardan çıxmış Azərbaycan polisini və xalqın ona münasibətini sarsıda bilməz. Ən başlıcası isə Azərbaycan xalqı Prezident İlham Əliyevin apardığı siyasəti ürəkdən dəstəkləyir və müdafiə edir. Sözün həqiqi mənasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqil dövlətimizdə möhkəm sabitliyin, ədalətin və inkişafın qüdrətli təminatçısı və qarantıdır. Xalqımız, o cümlədən ziyalılarımız belə məsuliyyətli günlərdə dövlət rəhbərimizin ətrafında daha sıx birləşirlər. Bu gün ölkəmizdə möhkəm birlik və sabitlik hökm sürür. Dövlətimiz ölkəmizdə hər cür sabitliyi və normal həyat tərzini təmin edib. Bu, bizim böyük sərvətimizdir. Bu sərvəti qorumaq hər birimizin şərəfli və məsuliyyətli borcudur.

### Professor Aygün Əttar: "Gəncədəki təxribat Azərbaycanın qüdrətlənməsini qəbul etmək istəməyən düşmən qüvvələrin əməlidir"



Gəncə şəhərində törədilən qanlı hadisələr Azərbaycanın inkişafını və qüdrətlənməsini qəbul etmək istəməyən düşmən qüvvələrin əməlidir. Bu ağır hadisələr Azərbaycan dövlətinə qarşı qəsd cəhdidir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyədə yaşayan və çalışan azərbaycanlı professor Aygün Əttar söyləyib. Azərbaycandakı sabitlik və inkişafın ölkəmizdən kənarda yaşayan hər bir azərbaycanlı tərəfindən iftixar yeri olduğunu bildirən professor Aygün Əttar qeyd edib ki, Azərbaycanın uğurla həyata keçirdiyi beynəlxalq iqtisadi layihələr, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu və TANAP bir sıra qüvvələri ciddi narahat etməyə başlayıb. Aprelin 11-də Azərbaycanda keçirilən prezident seçkilərinin nəticələri xalqımızın Prezident İlham Əliyevə olan etimadını bir daha nümayiş etdirdi. Azərbaycan Ordusunun 100 illiyi ilə bağlı Bakıda keçirilən möhtəşəm parad düşmənə göz dağı verdi. Bütün bu nailiyyətlər, əlbəttə, bizi istəməyən düşmən qüvvələri hiddətləndirir.

Aygün Əttar deyib: "Azərbaycan xalqı heç bir halda bu cür terror aktlarını, qətl və sui-qəsd hallarını sakit qəbul edə bilməz. Ölkə ictimaiyyəti kimi biz xaricdə yaşayan azərbaycanlılar da törədilən cinayətlərə kəskin etiraz səsimizi ucaldırıq. Əminik ki, vətəndaşlarımız Prezident İlham Əliyevin ətrafında daha sıx birləşərək bu cür xoşagəlməz hadisələrin dəf olunmasına, bir daha təkrar edilməməsinə əlavə güc verəcək".

### Hacı Sədi Axundzadə: "İslam dini insanları radikallığa, dağıtmağa, terrora deyil, əmin-amanlığa çağırır"



İslam dini insanları radikallığa, dağıtmağa, terrora deyil, əmin-amanlığa çağırır. Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Qafqaz Müsəlmanları İdarəsi sədrinin cənub bölgəsi üzrə səlahiyyətli nümayəndəsi hacı Sədi Axundzadə bildirib.

Ölkəmizin əsas gücünün və qüdrətinin təkcə onun iqtisadi və hərbi sahədə qazandığı uğurlarında deyil, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi sabitlikdə, milli birlikdə və əmin-amanlıqda olduğunu vurğulayan S.Axundzadə qeyd edib ki, bütün bunların nəticəsi olaraq insanlarımız sosial həyatlarını uğurla qurur, ortaya çıxa biləcək hər cür məişət problemini rahatca həll edir, firavan yaşayırlar. İmam Cəfər Sadiq buyurub ki, hər bir insan ədalətli, rifah içində və təhlükəsiz yaşamağa daha çox möhtacdır. Həm ədalətli, həm də rifah içində yaşamaq üçün təhlükəsiz mühit, sakit, sülh şəraiti çox vacibdir. Son günlərdə Gəncədə baş verən hadisələr bizim hər birimizi çox ciddi narahat edir. Yad qüvvələr ölkəmizdə siyasi, sosial, iqtisadi sabitliyi pozmağa çalışır, dövlət məmurlarına şərböhtan atır, itaətsizliyə, terrora çağırır, bəzi səbatsız qüvvələr isə mahiyyətini anlamadan buna dəstək olurlar. Acınacaqlı hal budur ki, bunu insanlara sülh, əmin-amanlıq, azadlıq vəd edən İslam dininin adı ilə hallandırmağa cəhd göstərilir. Əsl dindar heç vaxt əmin-amanlığı qoruyan polis işçisinə əl qaldırmaz, hər zaman qanunların aliliyinə riayət edər. Artıq hər kəsə gün kimi aydındır ki, Gəncə şəhərində son günlər baş verən hadisələrin arxasında xaricdən maliyyələşdirilən və idarə olunan qara qüvvələr dayanır. Bu, həmin olayları əks etdirən videosüjetlərdən də aydın görünür. Amma, onlar unudurlar ki, xalq artıq 1990-cı illərin əvvəllərində olduğu qədər sadəlövh deyil. Əvvəllər savadsız mollaların dini mövzuda danışdığı bir neçə nağılvari hədisdən başqa heç nə eşitməyən, oxumayan, bilməyən insanlar indi müstəqilliyin bizə verdiyi ən ali dəyərlərdən biri olan dini əqidə azadlığından düzgün istifadə edir, dini savad alır, "Qurani-Kərim"i Azərbaycan dilində oxuyur, rahat şəkildə məscidə, dini ibadət yerlərinə gedir, ayinləri tam doğru formada həyata keçirirlər.

Tolerantlıq və multikulturalizmin dindarlarımızın əsas amalı və əqidə məsələsi olduğunu deyən Sədi Axundzadə qeyd edib ki, belə bir şəraitdə kiminsə kənardan gəlib dindarlarımızı yoldan çıxarması, dövlətçiliyimizə qarşı qaldırması mümkün deyil. Qara qüvvələr hər dəfə bu kimi hallara cəhd göstərdikdə insanlarımız dövlətin yanında bir qədər də sıx birləşirlər. Sədi Axundzadə qeyd edib ki, Gəncədə özünü dindar kimi təqdim edən və aranı qarışdırmağa çalışan qüvvələrin əsl dinlə heç bir əlaqəsi yoxdur. Çünki dinimiz insanları radikallığa, dağıtmağa, terrora deyil, əmin-amanlığa çağırır.

### Rəşad Mahmudov: "Gəncə hadisələri həm dövlətimizə, həm də dini-mənəvi dəyərlərimizə qarşı təxribatdır"

Gəncədə baş verən qeyri-qanuni hərəkətləri, hüquq mühafizə orqanları əməkdaşlarının öldürülməsini birmənalı şəkildə pisləyir və düşünürəm ki, bu, dəhşətli faciə və cinayətdir. Bu, həm dövlətimizə, həm də dini-mənəvi dəyərlərimizə qarşı təxribatdır. İğtişaşdan öncə şəhər icra hakimiyyətinin başçısına qarşı törədilən terror aktı da dövlətçiliyimizə zərbə vurmaq cəhdidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, tanınmış kardiocərrah Rəşad Mahmudov deyib. "Əlbəttə, bu hadisələri, polislərimizin öldürülməsini təkcə gəncəlilər yox, bütün Azərbaycan xalqı pisləyir. Hesab edirəm ki, din və şəriət adına ləkə gətirən bir qrup radikal ünsürün xarici havadarlarına uyaraq belə bir vəhşilik törətməsi dini-mənəvi dəyərlərimizə də, şəriətimizə də zidddir, bunların nə Qurana, nə də digər müqəddəs kitablara aidiyyəti var. Adam öldürmək, dövlətə, xalqa, millətə, ağsaqqala, ağbirçəyə, qanun keşikçisinə qarşı çıxmaq, hələ üstəlik, vəhşilik edib qan tökmək hansı dində, hansı müqəddəs kitabda yazılıb? Axı bu hərəkətlər heç bir əxlaq kateqoriyasına, heç bir əxlaq normasına sığmır! Bəs bu qəbahətlər, məkrli niyyətlər nədən qaynaqlanır? Bizim din xadimlərimizin, sağlam ruhlu və düşüncəli ilahiyyatçılarımızın dini-əxlaqi dəyərlərimiz barədə tutarlı izahatlarına baxmayaraq, nə üçün bəzi nadanlar və cəhalət adamları xarici təsirlərə məzlumcasına baş əyirlər? Bəlkə bu təsirlər sosial şəbəkələrdə, müxtəlif portallarda, xarici məlumat saytlarında canfəşanlıq göstərən, insanların həssas və kövrək duyğuları ilə oynamağı bacaran "gözəgörünməz" müəlliflərin xidmətidir?", - deyə Rəşad Mahmudov vurğulayıb. O əlavə edib ki, bütün hallarda bu hərəkətlərin, qanunazidd əməllərin arxasında Azərbaycanı istəməyən gizli qüvvələr dayanır, əsas niyyətləri də sabitliyi pozmaq, insanlar arasında xof yaratmaq, onları kütləvi itaətsizliyə yönəltməkdir. Əlbəttə, bizim hüquq mühafizə orqanlarımız bu işləri araşdıracaq və əminəm ki, cinayət törədənləri və təşkilatçıları aşkara çıxaracaqlar, onlar qanun qarşısında cavab verəcəklər: "Bununla belə, mən bir mühüm məsələni xüsusi vurğulamaq istəyirəm və düşünürəm ki, ayıq-sayıqlığı itirməmək üçün hər bir Azərbaycan vətəndaşı bunu nəzərə almalıdır. Son vaxtlar dövlətimizin başçısı İlham Əliyevin məqsədyönlü addımlarını, qətiyyətli daxili və xarici siyasətini sevməyən, gözü götürməyən bəzi ünsürlər fəallaşıb. Onlar sistemli şəkildə ideoloji təxribatla məşğul olurlar. Xarici ölkələrdə "isti yerdə" oturub saytlar, dini və etnik cərəyanlar və qurumlar vasitəsilə, "YouTube" kanalı ilə nə cür olur-olsun xalqımız arasına təfriqə salmağa, uğurlarımıza kölgə salmağa çalışırlar. Hətta bəzi xarici dini saytlar üsyana, itaətsizliyə səsləyən çağırışlar da



# "Heç bir qüvvə Azərbaycan xalqının birliyini sarsıda bilməz"!

## *Azərbaycan ictimaiyyəti təxribatçı qüvvələrin Azərbaycanda sabitliyi pozmaq cəhdlərini qətiyyətlə pisləyir*

edir. Xarici anti-Azərbaycan qüvvələrin belə bir mənfur niyyətini anlamaq çətin deyil, amma təəssüf ki, sapı özümüzdən olan baltalar - daxilimizdəki bəzi ünsürlər və qruplar onlara dəstək verir. Biz öz içimizdəki nankorların xain hərəkətlərinə də göz yuma bilmərik. Düşünürəm ki, ictimai rəyə təsir imkanı olan bütün insanlarımız bu adamları mümkün qədər qınamalı, cinayətə bəraət qazandıran adamların utancverici hərəkətlərini pisləməlidirlər. Biz hamımız dövlətimizin və Prezidentimizin ətrafında birləşməliyik. Vətənimizin, torpağımızın, dövlətçiliyimizin mənafeyi naminə hamı bir nöqtəyə vurmalıdır. Tam əminliklə deyə bilərəm ki, Azərbaycan dövlətini, onun müstəqilliyini, milli maraqlarını, mənəvi-əxlaqi dəyərlərini heç bir terror və təxribat sarsıda bilməz, çünki onun arxasında müdrik xalqı ilə güclü liderinin sarsılmaz birliyi dayanıb".

### Tərlan Əhmədov: "Anti-Azərbaycan qüvvələrin çirkin istəkləri heç vaxt baş tutmayacaq"



"Azərbaycan dövləti ölkəmizin inkişafı, xalqımızın rifahının yaxşılaşdırılması istiqamətində dayanmadan çalışır. Dövlətimizə, xalqımıza qarşı törədilən terror hadisələri, ölkəmizin inkişafını istəməyən, xaos yaratmaq niyyətində olanların planlarıdır. Anti-Azərbaycan qüvvələrin çirkin istəkləri heç vaxt baş tutmayacaq". Bunu SİA-ya açıqlamasında tanınmış futbol mütəxəssisi, "Neftçi" klubunun sabiq baş məşqçisi Tərlan Əhmədov deyib.

O qeyd edib ki, Gəncədə baş vermiş hadisə Azərbaycanı istəməyən qüclərin xaincəsinə hazırladığı təxribatdır: "Gəncədə iki polis zabitinin qətlə yetirilməsi Azərbaycana qarşı yönəlmiş terrordur. İdmançılarımız dövlətimizə qarşı olan belə məkrli əməlləri pisləyir. Biz əminik ki, bu cinayətləri törədənlər öz layiqli cəzalarını çəkəcəklər". T.Əhmədov vurğulayıb ki, Azərbaycan idmançıları hər zaman dövlətimizin yanındadır və dövlətçiliyimiz yolunda mübarizə aparırlar: "Xalqımız, o cümlədən idmançılarımız cənab Prezidentin siyasətini dəstəkləyir və onun ətrafında sıx birləşib. Azərbaycanda bütün sahələrdə sürətli inkişaf gedir. Ölkəmizdə dini, irqi ayrı-seçkilik yoxdur. Burada multikultural, tolerant mühit yaradılıb. Bütün bu və digər sahələrin inkişafı ölkəmizin bütün dünyada güclü dövlət kimi formalaşması və söz sahibinə çevrilməsinə gətirib çıxarıb".

### Baloğlan Əşrəfov: "İncəsənət nümayəndələri Gəncədə baş verənləri pisləyir"



Xəbər verdiyimiz kimi, iyulun 10-da Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncədə təxribatçıların əli ilə xoşagəlməz hadisələr yaşanıb. Həmin gecə ictimai asayişi pozmağa cəhd göstərmiş radikal dini yönümlü bir qrup şəxsin xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarına küt və kəsici-deşici alətlərlə hücum etməsi nəticəsində 2 polis zabiti şəhid olub.

Dərhal görülmüş tədbirlərlə Gəncə şəhərində ictimai asayiş tam bərpa edilib, bütövlükdə respublikada sabitlik və təhlükəsizlik etibarlı qorunur. Gəncədə təxribatçıların əli ilə xoşagəlməz hadisələrin baş verməsinə əməkdar artist Baloğlan Əşrəfov münasibət bildirib: "Azərbaycanda heç vaxt iğtişaşın olmasını istəmirəm. Bu xəbəri eşidəndə çox pis oldum. Hətta məyus oldum ki, Gəncədə təxribatçıların əli ilə baş vermiş hadisələr zamanı iki polisimiz şəhid oldu. Polislərdən biri yaxın dostumun qohumu idi. Allah polislərimizə rəhmət eləsin! Bir incəsənət adamı kimi hər zaman dövlətimizə sülh, əmin-amanlıq arzulayıram. Onu da xüsusi ilə qeyd edim ki, sənət dostlarım da Gəncədə təxribatçıların əli ilə xoşagəlməz hadisələrin yaşanmasını pisləyirlər. Müğənnilər istəyirik ki, hər zaman Azərbaycanda xoş günlər olsun. Çünki biz sənətçilər xalqın sayəsində pul qazanırıq. İfaçılar el şənliklərində, tədbirlərdə iştirak edib, maddi gəlir əldə edirlər. Dövlətimizdə xoşagəlməz hadisələr baş verəndə hamı kimi biz musiqiçilərə də təsirsiz ötüşmür".

### Baş redaktor: "Azərbaycan dövlətini qorumağa borcluyuq"



"Ümumiyyətlə, Mingəçevir İES-də baş verən qəzadan sonra və Gəncə şəhəri İcra hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı olan sui-qəsddən sonra açıq göründü ki, sosial şəbəkələrdə qruplaşmış və haradansa idarə olunan bir qrup insanlar var ki, onlar Azərbaycanda təxribat, qarşıdurma yaratmaq niyyətindədirlər. Bu açıq şəkildə göründü". Bunu SİA-ya açıqlamasında "525-ci" qəzetin baş redaktoru Rəşad Məcid deyib.

Onun sözlərinə görə, Gəncədəki son hadisə, mitinqə çağırışlar, radikal dini qrupların nümayəndələrinin polislərimizi qətlə yetirməsi göstərdi ki, həqiqətən də müxtəlif xarici qüvvələrin Azərbaycanda aranı qarışdırmaq üçün planlı surətdə həyata keçirmək istədiyi təxribatlar var: "Çox təəssüflər olsun ki, bunlar Azərbaycanda məhdud dünyagörüşlü, heç bir ali təhsili olmayan, dində sığınacaq tapan, cəhalət və xürafat təsirində olan insanlardan istifadə edirlər. Çox vaxt da onlar din pərdəsi altında kriminal qrupların nümayəndələri olurlar və öz məhiyyətlərini gizləyirlər. Mən bu hadisələr zamanı sosial şəbəkədə Azərbaycanın ziyalılarına, düşüncəli insanlarına müraciət etdim ki, bu cür radikal dini düşüncənin Azərbaycanda geniş yayılmasına yol verməl olmaz. Biz hamılıqla uzun illərdən bəri yaranmış və sərvətimiz olan dünyəvi dövləti qorumağa borcluyuq. Bunun üçün də öz səsimizi qaldırmalıyıq".

### Firdovsi Umudov: "Günahkarlar qanun qarşısında cavab verəcəklər"



"Azərbaycanın inkişafını, güclənməsini istəməyən xain qüvvələr Gəncədə baş vermiş hadisələrlə ölkədə xaos yaratmağa cəhd etdilər. Ancaq onların istəkləri heç vaxt baş tutmayacaq. Çünki Azərbaycanın güclü dövləti və Prezidenti var. Xalqımız cənab Prezidentin ətrafında sıx birləşib". Bunu SİA-ya açıqlamasında Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti Firdovsi Umudov deyib.

O qeyd edib ki, bütün idmançılarımız ölkəmizə, dövlətimizə qarşı hazırlanmış təxribatlar, terror hadisələrini pisləyir və belə xain əməlləri həyata keçirənləri lənətləyir: "Azərbaycan vətəndaşı kimi bu hadisələrə biganə qala bilmərik. Ölkəmizi istəməyən insanlar, düşmən dəyirmanına su tökənlər azərbaycanlı ola bilməz. Onlar heç vaxt öz çirkin niyyətlərinə çata bilməyəcəklər. Xalqımız Azərbaycan dövlətini dəstəkləyir. Son hadisələrdə də xalq və iqtidar birliyi özünü göstərdi".

F.Umudov vurğulayıb ki, ölkəmizin keşiyində dayanan iki polis zabitinin qətlə yetirilməsi Azərbaycan dövlətinə, xalqımıza qarşı törədilən terror hadisəsidir: "İnsan öz əzizini itirəndə necə təsir edirsə, mənə də bu hadisə elə təsir etdi. O polis zabitləri silahsız idilər və asayişin keşiyində durmağa gəlmişdilər. Onların öldürülməsi böyük cinayət və terrordur. Polislərimizi qətlə yetirənlər, günahkarlar qanun qarşısında cavab verəcəklər. Mən bütün xalqımıza səslənirəm. Belə halların baş verməməsi üçün heç vaxt satılmış, xain insanların yalanlarına, sosial şəbəkələrdəki yalan çağırışlara inanmaq olmaz. Biz dövlətimizin ətrafında sıx birləşib Dağlıq Qarabağ probleminin həllinə çalışmalıyıq".

### Çingiz Qənizadə: "Bu cür ünsürlər Azərbaycandakı stabilliyi heç cür poza bilməzlər"



"Ümumiyyətlə Gəncədə baş verən hadisələr heç də təsadüf və yaxud sosial problemlərlə bağlı deyildi". Bunu SİA-ya açıqlamasında millət vəkili Çingiz Qənizadə deyib. Onun sözlərinə görə, bu, qabaqcadan xaricdə ssenarisi cızılmış özümüzdən olan bir qrup ünsürlər vasitəsilə həyata keçirilməyə cəhd olunan iğtişaşdır: "Burada da məqsəd Azərbaycan dövlətinin suverenliyini, Azərbaycan dövlətinin özünün varlığına yönələn bir qəsddir. Eyni zamanda, ölkədə ictimai-siyasi prosesləri pozmaqla ölkədə siyasi hakimiyyətin dəyişməsinə və islam təmayüllü insanların hakimiyyətə gəlməsinə xidmət edən bir təxribat idi. Çox təəssüf edirəm ki, bu zaman bizim iki polis zabitimiz şəhid oldu. Allah onlara rəhmət eləsin. Bütün bunlarla nəylə qaynaqlanır? Azərbaycanın bugünkü inkişafı, qüdrəti və xüsusilə qeyd edərdim ki, 26 iyunda Azərbaycan ordusunun gücünü göstərən Hərbi Parad və s. Azərbaycanın dünyada söz sahibi olması qonşularımızı, ayrı-ayrı ünsürləri, şəxsləri qane etmir.

Prezident İlham Əliyevin də müstəqil siyasət yürütməsi, milli və dövlət maraqlarına xidmət edən siyasətdən bir addım da kənara çəkilməməsi görünür başqalarını qane etmir. Ona görə də bu ölkədə ictimai-siyasi prosesləri pozmaqla ölkədə gedən inkişafa, Azərbaycanın uğurlu gələcəyinə gedən yola əngəllər törətmək istəyirlər. Şübhəsiz ki, bunların hamısı əbəs yerədir. Çünki 11 aprel Prezident seçkiləri bir daha göstərdi ki, xalq Prezidentin yanındadır. Xalqla-hakimiyyət arasında o qədər möhkəm bağlılıq var ki, bu cür ünsürlər, yaramazlar Azərbaycandakı stabilliyi heç cür poza bilməzlər. Bu, bir xain hərəkət idi. Hesab edirəm ki, hüquq-mühafizə orqanları onların layiqli cəzalarını verəcək".

Ardı Səh. 10

# "Heç bir qüvvə Azərbaycan xalqının birliyini sarsıda bilməz"!

## *Azərbaycan ictimaiyyəti təxribatçı qüvvələrin Azərbaycanda sabitliyi pozmaq cəhdlərini qətiyyətlə pisləyir*

Əvvəli Səh. 9

### Elşən Musayev: "Azərbaycan dövləti möhkəm dayaqlar üzərində qurulub"



"Sosial şəbəkələrdəki çağırışları dinləyəndən, oxuyandan sonra tam aydın olurdu ki, siyasətdən, ictimai-siyasi proseslərdən baş çıxarmayan adamlar belə agah idi ki, onlar hansısa nöqtədən, mərkəzdən idarə olunurlar. Təbii ki, çata bilməzlər. Çünki ölkə daim inkişafdadır. Məhz elə bu inkişafı gözügötürməyən şəbəkədir ki, uzun müddət Azərbaycanla informasiya müharibəsinə qalxmaq istəyirlər. Amma istəklərinə nail ola bilmirlər. Azərbaycan hər zaman bu cür təhdidlərlə üzbəüz qalıb". Bunu SİA-ya açıqlamasında millət vəkili Elşən Musayev deyib.

Onun sözlərinə görə, ölkəmiz daima inkişaf etdikcə onu gözügötürməyən qüvvələr belə bir təxribatlara əl atıblar: "Sadəcə fərq ondan ibarətdir ki, Azərbaycan bu dəfə bu forsmajoru gözləmirdi. Nə üçün gözləmirdi? Çünki hadisələr Gəncədə cərəyan etdiyinə görə, Gəncə əhalisi gər zaman dövlətə və dövlətçiliyə bağlı insanlar olub və öz Prezidentini dəstəkləyib. Məsələ burasındadır ki, bu gün baş verən hadisələr də Gəncə camaatının iradəsindən kənarda baş verən hadisələrdir. Hətta polislərin qətlə yetirilməsi videosuna baxdıqda belə aydın olur ki, insanlar sakit şəkildə parkda gəzirlər və istirahət edirlər. Bu zaman bir qrup hansısa şəbəkənin idarə etdiyi terrorçu gizləndikləri yerdən çıxaraq polislərin üzərinə hücum edirlər. Ümumiyyətlə, Azərbaycanın son müstəqillik tarixində heç vaxt polis öz vətəndaşına qarşı ağır hərəkətlər etməyib. Hərçənd ki, onların təlimatında lazım gələrsə atəş açmaq, dövləti, dövlətçiliyi qorumaq üçün bir çox üsullara əl atmağa ixtiyarı var. Amma polislər ora silahsız getmişdilər. Axı belə bir insanları necə öldürmək olar? Bu çox absurddur və insani hərəkət deyil. Bu gün hansı dövlətdə kimsə əlində qılıncla, daş-kəsəklə mitinqə gedir? Mitinq etiraz bir nümunəsidir və narazılıq ifadəsidir. O dəqiqə görünür ki, bu şəbəkə özünü ifşa edir. Hətta Gəncə şəhər İcra hakimiyyətinin başçısına sui-qəsd olan zaman həmin terrorçunu yüksəltməyə çalışırdılar. Sosial şəbəkələrdə xain, quldur dəstələr onu "milli qəhrəman" kimi qələmə verirdilər. Amma sonrakı proseslər onların iç üzünü açdı. Şübhə etmirəm ki, Azərbaycanın təhlükəsizlik, hüquq-mühafizə orqanları bu cinayətlərin motivini, kökünü tez bir zamanda tapacaq. Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətini möhkəm dayaqlar üzərində qurub. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən də Azərbaycan dövləti bir qarant, təməl olaraq elə bir şəkildə qorunur ki, heç kim o təmələ ziyan vura bilməz".

### Elnur Amanov: "Sabitliyi pozmaq istəyənlər niyyətlərinə çata bilməyəcəklər"




"Mən Azərbaycan dövlətini və xalqını sevən bir insan olaraq Gəncədə baş verən hadisələri qınayıram. Orada baş verən hadisələr Azərbaycana qarşı törədilən təxribatdır. Azərbaycan güclü dövlətdir. Ölkəmizdə sabitliyi pozmaq istəyənlər niyyətlərinə çata bilməyəcəklər". Bunu SİA-ya açıqlamasında Azərbaycanın taekvondo üzrə qadınlardan ibarət yığma komandasının baş məşqçisi Elnur Amanov deyib. O, Gəncədə polis zabitlərinin qətlə yetirilməsinin böyük cinayət hadisəsi olduğunu, bunu törədənlərin tezliklə cəzalandırılacağına əminliyini ifadə edib: "Vəzifə borcunu yerinə yetirərkən öldürülən polislərimizə Allah rəhmət eləsin. Onların yaxınlarına səbir diləyirəm. Bu hadisələr Azərbaycanın inkişafını istəməyən qüvvələr tərəfindən törədilib. Xalqımız hər zaman olduğu kimi, öz Prezidentinin ətrafında birləşərək dövlətçiliyimizi təhlükə altına qoymağa cəhd göstərənlərə qarşı mübarizəni davam etdirəcək".

### Zaur Mirzə-zadə: "Sabitliyimizi heç bir qüvvə poza bilməz"



"Dünya Azərbaycanlıları" İctimai Mərkəzinin sədri, XALQ.AZ-ın baş redaktoru Zaur Mirzə-zadə "İki sahil" qəzetinə açıqlamasında iyulun 10-da Gəncədə baş vermiş terror hadisəsinin şərh edərkən bildirib ki, bu hadisə Azərbaycanı istəməyən güclərin xaincəsinə hazırladığı təxribatdır: "İki yüksək rütbəli polis zabitinin qətlə yetirilməsi Azərbaycana qarşı yönəlmiş terrordur. Ölkəmizin inkişafını istəməyən, xaos yaratmaq niyyətində olanların planlarıdır. Bu hadisələri törədənlər tezliklə cəzalarını alacaqlar. Azərbaycanda sabitliyi heç bir qüvvə poza bilməz. Çünki dövlətimiz bu sabitliyi əldə etmək üçün çox böyük sınaqlardan keçib."

Zaur Mirzə-zadə vurğulayıb ki, xalqımız müstəqil Azərbaycanda mövcud olan bu dəyərlərin qorunması naminə elə sıx birləşib ki, bu birliyi heç bir vəchlə pozmaq mümkün deyil: "Bu cinayətlərin səbəbləri və arxasında dayanan məsələlər ciddi şəkildə araşdırılacaq. Hesab edirəm ki, Gəncədə yaranmış həssas dönəm cəmiyyətimizin dövlətin ətrafında daha sıx birləşməsini tələb edir. Bu hadisələr bizi daha da birləşdirməlidir. Dövlətin qanuni təmsilçisinə, polis zabitlərinə əl qaldıranlar terrorçu kimi qəbul edilməli, nəinki onların özləri, dəstəkçiləri də aşkarlanıb qanunla sərt cəzalandırılmalıdır."

### Professor İslam Mustafayev: "Gəncədəki iğtişaş ölkəmizin inkişafını istəməyən qüvvələr tərəfindən törədilib"



Azərbaycan regionda lider dövlətdir. Ölkəmiz iqtisadiyyat, təhsil, mədəniyyət, turizm, idman və digər sahələr üzrə uğurla inkişaf edir. Dövlətimizin başçısının rəhbərliyi ilə çoxlu strateji proqramlar qəbul olunub. Bu proqramlar ölkənin davamlı inkişafını təmin edir. Lakin bu inkişafı gözü götürməyən qüvvələr Azərbaycanda iğtişaşlar törətməyə, insanları vahiməyə salmağa çalışırlar. Gəncədə baş verən məlum hadisələr zamanı dövlət məmurlarına sui-qəsdlər də bu məqsədlə törədilib.

Bu sözləri Gəncədəki iğtişaşla bağlı fikirlərini AZƏRTAC-la bölüşən Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor İslam Mustafayev söyləyib.

Alim deyib: "Mən bir ziyalı olaraq hesab edirəm ki, son hadisələr ölkəmizi, inkişafımızı istəməyən qüvvələr tərəfindən törədilib. Onlar istəyirlər ki, digər müsəlman ölkələrindəki qeyri-sabitlik Azərbaycanda da baş versin. Lakin təhsilli, dünyagörüşlü, hər bir məsələni düzgün qiymətləndirən insanlarımız buna imkan verməyəcəklər. Xalqımız Gəncə hadisələrini qətiyyətlə pisləyir. Belə halların qarşısının alınmasında dövlətimizin güc strukturlarının operativ və sayıq addımları, sabitliyi bərqərar etmələri xalqda böyük inam və güvən yaradır. İnanıram ki, ən səmərəli üsullardan istifadə edilərək məlum hadisələrin təkrarlanmasına yol verilməyəcək, radikal dini qrupların üzvləri tapılaraq məsuliyyətə cəlb olunacaq, ölkəmiz bundan sonra da dinamik inkişaf yolu ilə irəliləyəcək".

### "Gəncədəki hadisələr bəlli ssenari üzərində cərəyan edir"

"Ümumiyyətlə, Azərbaycanı istəməyən qüvvələrin planları hər zaman olub və olacaq". Bunu SİA-ya açıqlamasında İctimai Problemlərin Tədqiqi Assosiasiyasının sədri Məhərrəm Zülfüqarlı deyib.



"Sadəcə olaraq ölkəmizdə bu planları həyata keçirmək üçün münbit şərait yoxdur. Məsələn, bunlar Yaxın Şərq, Ermənistan, Gürcüstan və s. hamısını qarışdırmaqla məşğul idilər. Azərbaycanda isə bunlar 11 aprel Prezident seçkiləri zamanı və seçkilərdən əvvəl də öz niyyətlərini həyata keçirə bilmədilər. Ona görə də Gəncədəki hadisələr həmin ssenari üzərində cərəyan edir. Bütün bunlara baxmayaraq Azərbaycan cəmiyyətinin, xalqının mütləq əksəriyyəti bu təxribatlara qoşulmur. Bu sevindirici bir haldır. Kənarda olan Azərbaycanı istəməyən qüvvələrin məqsədi odur ki, ölkəmiz zəifləsin, dövlətimizi istədikləri kimi təzyiq etsinlər və monolit bir rejimə çevrilsin. Amma Azərbaycan Qərb, Rusiya, İranla bərabər səviyyəli münasibətlər qurub və bu uğurlu siyasətini davam etdirir. Təbii ki, bu da çoxlarının xoşuna gəlmədiyinə görə bu cür təxribatlara əl atırlar. Hesab edirəm ki, Azərbaycan dövlətçiliyinə qarşı bu cür cılız hərəkətlərin qarşısı alınıb və alınacaqdır".

### "Bəzi qüvvələr Azərbaycanın regiondakı aparıcı rolunu, sosial-iqtisadi inkişafını və sabitliyini qəbul etmək istəmir"



Bu gün Azərbaycan regionun ən inkişaf etmiş ölkəsidir. Gürcüstan ilə Azərbaycan çox vacib regional layihələr həyata keçirirlər. Bu layihələr təkcə bizim ölkələrin deyil, Avropanın özü üçün də mühüm əhəmiyyət kəsb edir. Təəssüf ki, bəzi qüvvələr Azərbaycanın regiondakı aparıcı rolunu, sosial-iqtisadi inkişafını, sabitliyini qəbul etmək istəmirlər.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Gürcüstan Azərbaycanlıları Konqresinin (GAK) sədri Hüseyn Yusubov söyləyib. H.Yusubov bildirib ki, bəzi qüvvələr Azərbaycanda sabitliyi pozmağa, vətəndaş qarşıdurması yaratmağa çalışırlar. Bunun üçün hətta, din adından da istifadə edirlər. İyulun 10-da Gəncədə baş vermiş hadisələr bunu bir daha sübut etdi.

*Ardı Səh. 11*

# “Heç bir qüvvə Azərbaycan xalqının birliyini sarsıda bilməz”!

*Azərbaycan ictimaiyyəti təxribatçı qüvvələrin Azərbaycanda sabitliyi pozmaq cəhdlərini qətiyyətlə pisləyir*

Əvvəli Səh. 10

Gürcüstan Azərbaycanlıları Konqresi Gəncə şəhərində törədilən iğtişaşı qətiyyətlə pisləyir. Azərbaycanda heç zaman dini zəmində qarşıdurma və ayrı-seçkilik olmayıb. Azərbaycan tolerant, multikultural ölkədir. Amma bu regionda sabitliyi istəməyən qüvvələr var ki, onlar qarşıdurma yaradır, insanları qətlə yetirir, sonra da bunların dini zəmində baş verdiyini iddia edirlər. Biz, bəyan edirik ki, bütün bunlar Azərbaycanın gündən-günə artan nüfuzuna zərbə vurmaq məqsədi daşıyır. Amma onlar heç vaxt öz məqsədlərinə nail ola bilməyəcəklər. “Biz, Gürcüstanda yaşayan hər bir azərbaycanlı milli dövlətimiz Azərbaycanı sevirik. Azərbaycan xalqı və Prezidenti ətrafında sıx birləşərək pozucu qüvvələrə imkan verməyəcəyik”, - deyə H.Yusubov vurğulayıb.

## Tahir Kərimli: “Həmin ünsürlərin xaricdəki terrorist qruplardan heç bir fərqi yoxdur “



“Vəhdət partiyasının sədri və millət vəkili olaraq, bu hadisəni qəti şəkildə pisləyirəm”. Bunu SİA-ya açıqlamasında Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli deyib.

Onun sözlərinə görə, partiyamız və özümüz birmənalı şəkildə dövlətimizin, Prezidentimizin yanındayıq: “Azərbaycanda möhtəşəm şəkildə Xalq Cümhuriyyətinin 100 illiyi münasibəti ilə respublikamızda və xarici ölkələrdə tədbirlər təşkil olundu və Bakıda hərbi parad keçirildi. Ordumuz uğurlu hərbi əməliyyatlar həyata keçirməklə Cocuq Mərcanlıdan sonra 11 min hektar ərazini, o cümlədən Şərur rayonundakı Günnüt kəndini yağı düşməndən azad etdi. Bütün bu uğurlarımız bizi istəməyən yerli və xarici qüvvələri ciddi narahat edir. Həmin məkrli qüvvələrin gözü götürmür ki, Azərbaycan bu cür güclü qüdrətə, sabitliyə malikdir, insanlar xoşbəxt və firavan həyat yaşayır. Pozucu aktlarla Azərbaycanı daxildən sarsıtmaq istəyirlər. Azərbaycanda sabitlik Azərbaycan xalqının ən böyük sərvətidir. Hər zaman dövlətimiz dindarlarımızın yanında olub. Lakin radikal dindarlar diqqət və qayğıdan xaricdən verilən tapşırıqlara uyğun olaraq öz məkrli maraqları üçün istifadə eyməyə çalışırlar. Həmin ünsürlərin xaricdəki terrorist qruplardan heç bir fərqi yoxdur. Hər kəs bilir ki, polis Azərbaycan gerbini daşıyır və Azərbaycan dövlətinin simvoludur. Yəni o gerb Azərbaycan polisinin üstündə gəzir. Polisə qarşı əl qaldırmaq vəhşilikdir. Görün bəzi insanları öz tərəflərinə çəkib, cinayət əməlləri törətməyə məcbur edənlər var. Bir sözlə, Azərbaycanın bütün siyasi partiyalarına, QHT-lərə, KİV-lərə və aktiv insanlarına müraciət edərək bildirmək istəyirik ki, dövlətimizin yanında olsunlar, təxribatlara uymasınlar. Başa düşsünlər ki, Azərbaycan dövləti istənilən təxribatın qarşısını almağa qadirdir. Belə halların baş verməsi düşməni sevindirir, dostu narahat edir. Bu baxımdan da, hamını ayıq-sayıq olmağa və belə halları qətiyyətlə pisləməyi, dövlətimizin yanında olmağa çağırıram”.

## “Azərbaycanda sabitliyi heç bir qüvvə poza bilməz”



“Gəncə hadisələri hər bir Azərbaycan insanı, dövlət və dövlətçiliyimiz üçün narahatçılıq doğuran məsələdir. Amma hər zaman olduğu kimi vətəndaşlarımız bu gün də əzmkarlıq nümayiş etdirib, baş verən prosesləri düzgün təhlil edir, dünyada gedən proseslərin Azərbaycana sirayət etməməsinə dair mübarizə aparır”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Fəzail İbrahimli deyib.

O bildirib ki, Gəncə Azərbaycanın tarixində mühüm rol oynayan bir şəhərdir: “Şərəfli tarixi olan, düşmənə boyun əyməyən Gəncə adını daim qoruyan və xarici təcavüzkarlara qarşı mərdliklə döyüşən şəhər olub. Tarixə nəzər yetirsək görərik ki, Gəncə bütün varlığı ilə daim müstəqilliyi uğrunda mübarizə aparıb, qurbanlar, şəhidlər versə də, heç zaman qürurunu əyməyib. Vaxtilə Cavad xan ailəsi ilə birgə tikə-tikə doğransa da, düşmənə boyun əymədi. O özünü müstəqillik, başqasının bayrağının altına girməmək naminə ölümü itaətdən üstün tutdu. Gəncə Cavadxan kimilərin vətənidir. 1920-ci ildə Azərbaycan işğal olunduqda rus işğalına qarşı üsyan da, məhz Gəncədə baş verib. O dövrdə 12 min insan qurban oldu. Bütün bunlar Azərbaycanın istiqlalı naminə baş verdi. Bütün bunlara nəzərə salsaq görərik ki, Gəncə tarixən böyük sınaqlardan keçib. Bir neçə gün öncə baş verənlər də bu sınaqlardan biri idi. Azərbaycanın uğuruna kölgə salmaq istəyənlər tərəfindən iğtişaş yaratmaq cəhdinə qarşı həmvətənlərimiz öz mübarizə əzmini nümayiş etdirdilər”.

Hadisələr nəticəsində iki polis əməkdaşının qətlə yetirildiyini kədər hissi ilə anan deputat söyləyib ki, bu hadisələri törədənlər tezliklə cəzalarını alacaqlar: “Azərbaycanda sabitliyi heç bir qüvvə poza bilməz. Çünki, dövlətimiz bu sabitliyi əldə etmək üçün çox böyük sınaqlardan keçib. Xalqımız müstəqil Azərbaycanda mövcud olan bu dəyərlərin qorunması naminə o qədər güclü birləşib ki, bu birliyi heç bir vəchlə ayırmaq mümkün deyil”.

# Təranə Kərimova: “Xalqımız daha ayıq-sayıq olmalı, mənfur qüvvələrin ifşa olunmasında dövlətlə çiyin-çiyinə addımlamalıdır”



***“Gəncə hadisələri bir daha göstərdi ki, hüquqi və demokratik dövlət olan Azərbaycanda sabitliyi pozmağa çalışan daxili və xarici düşmənlər var”. Bu fikirləri “Səs” qəzetinə açıqlamasında Yeni Azərbaycan Partiyasının Səbail rayon təşkilatının qadınlar şurasının sədri Təranə Kərimova baş verən olaylara münasibətini açıqlayarkən deyib.***

Onun sözlərinə görə, bu kimi məsələlərdə daha çox nəzərə çarpanlar xarici ölkələrdən idarə olunan və Azərbaycanda vətəndaş qarşıdurmasını alovlandırmağa cəhdlər göstərən, milli, etnik və dini ayrıseçkiliyi təbliğ edən qüvvələr oldular ki, belələrinin cəhdləri uğursuzluqla nəticələndi: “Söz yox ki, bu kimi cəhdlərin Azərbaycan ictimaiyyətinə, sağlam düşüncəli ictimai rəyə heç bir təsiri olmadı. Çünki ölkəmizdə mövcud olan və möhkəm təməllərə əsaslanan xalq-dövlət və hakimiyyət birliyi var. Bu birliyin pozulmasını istəyənlər çox oldu. Hətta bu gün özlərini ənənəvi müxalifət partiyalarının “liderləri” adlandıran şəxslər sosial şəbəkələrdəki trolları vasitəsi ilə itaətsizliyə çağırışlar etdirdilər. Lakin bunun heç bir səmərəsinin olmadığını gördükdən sonra geri çəkilməyə məcbur oldular. Xalqın gözü tərəzidir və atılan hər bir addım diqqətlərdən yayınmır”.

T.Kərimova onu da qeyd edib ki, hadisələr zamanı iki yüksək rütbəli polis zabitinin vəhşicəsinə qətlə yetirilməsi və bu qətllərdə radikal dini qruplaşmaların adlarının hallanması bəlli xarici qüvvələrin mənfur sifarişlərinin nəticəsidir. “Zaman-zaman gizli fəaliyyət göstərən həmin qüvvələr son günlər açıq şəkildə dövlətimizin mənafeyinə qarşı çirkin niyyətlərini ortaya qoydular. Ancaq Azərbaycan xalqının iradəsi və sabitliyə, birmənalı olaraq, dəstək göstərməsi belə qaranlıq niyyətləri darmadağın etdi”-deyə qeyd edən T.Kərimovaya görə, Azərbaycan etibarlı əllərdədir: “Ölkə başçımız, Cənab Prezident İlham Əliyevin ətrafında birləşən xalqımız inanır ki, heç bir daxili və xarici qüvvə Azərbaycanın hüquqi-demokratik dövlət quruluşuna qarşı mənfur əməllərini reallaşdıra bilməyəcək. Dövlət başçımız, məhz bu faktor əsasında qətiyyətli siyasətini yeritməkdədir. O, dəfələrlə öz çıxışlarında vurğulayıb ki, heç bir qüvvə müstəqil Azərbaycan dövlətinin möhkəm təməllərə söykənmiş əsaslarına xələl gətirə bilməz. Bəli, xalqımız ölkə başçımızın bu fikirləri ətrafında birləşərək, dövlətçiliyimizin qorunmasında dönməz mövqeyini nümayiş etdirir”.

YAP Səbail rayon təşkilatının Qadınlar Şurasının sədri, həmçinin, onu da qeyd edib ki, baş verən məlum olaylardan sonra xalqımız daha ayıq-sayıq olmalı, mənfur qüvvələrin ifşa olunmasında dövlətlə çiyin-çiyinə addımlamalıdır: “Hesab edirəm ki, dövlətçiliyimizə qarşı təxribat törədənlər Azərbaycan qanunvericiliyinin ən sərt üzü ilə qarşı-qarşıya qalacaqlar. İstər Gəncə şəhərinin icra hakimiyyətinin başçısına qarşı sui-qəsd edənlər, istərsə də polis zabitlərimizi qətlə yetirən cinayətkarlar və onların havadarları layiq olduqları cəzaları alacaqlar”.

**R.HÜSEYNOVA**

# ATU-nun fərqlənən tələbələri “Nar” tərəfindən mükafatlandırıldı

***“Nar” özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində Azərbaycan Texniki Universiteti (AzTU) ilə əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Bu əməkdaşlıq çərçivəsində “Nar” universitetin Radiotexnika və rabitə fakültəsinin 2018-ci dərs ilinin ilk tədris semestri üzrə ən yaxşı nəticələri göstərən tələbələrini mükafatlandırdı.***



11 iyun 2018-ci il tarixdə “Nar”-ın baş ofisində təşkil edilən görüşdə göstərdikləri yüksək nəticələrə uyğun olaraq, 1-ci, 2-ci və 3-cü yerləri tutmuş tələbələr - Ağalarov Vüsal, Rzayev Əlislam və İbrahimova Arzu mobil operatordan dəyərli hədiyyələr qazandılar. Təhsilə və maarifə xüsusi önəm verən “Nar”-ın bu təşəbbüsü tələbələri dərslərinə daha həvəslə yanaşmağa sövq edir. “Nar” KSM strategiyası çərçivəsində semestr üzrə ən yaxşı nəticələri göstərmiş 3 AzTU tələbəsi xüsusi hədiyyələrlə təltif edilir.

Qeyd edək ki, Azərbaycan Texniki Universitetində “Nar” GSM laboratoriyası fəaliyyət göstərir. Bu laboratoriya tələbələrə GSM sahəsi üzrə təcrübi biliklər əldə etməyə imkan yaradır. Müasir telekommunikasiya avadanlığının quraşdırıldığı “Nar” GSM laboratoriyasında tələbələr üçün təlim və seminarlar keçirilir. Bu təlimlər mobil rabitənin peşəkarları olan “Nar”-ın texniki əməkdaşları tərəfindən keçirilir.

# Azərbaycan meyvə-tərəvəz ixracını 13%-dən çox artırıb



Bu ilin yanvar-iyun ayları ərzində Azərbaycan 276 mln. 701,57 min ABŞ dolları dəyərində 299 min 677,26 ton meyvə-tərəvəz ixrac edib. Bu barədə SİA Dövlət Gömrük Komitəsinin xarici ticarətin gömrük statistikasının aylıq hesabatına istinadən məlumat verib. Məlumata görə, bu, həcm baxımından 2017-ci ilin 6 ayı ilə müqayisədə 34 min 968,67 ton və ya 13,21% çoxdur. Məbləğ baxımından isə illik nisbətdə 46 mln. 635,38 min dollar və ya 20,27% çoxdur.

# Ömrə naxış salan izlər

***Hər kəsin özündən biixtiyar olaraq, yaşadığı həyatın hökmünü verən zaman, onu nizamlayan və fərdlərin keyfiyyətlərinin üzə çıxarılmasında qərar verən illər və bu məsafədə istedad və zəhmətin fövqündə duran amillər, məhz varlıqların həyat naxışını salır. Neçə onillikləri yola salmış və ömrünün kamil bir zamanında hesabatını nizamlayan və bu yaşantılarının müqabilində özü-özünə məsuliyyətlə yanaşan Ofelya xanım Mürsəlovanın da həyat və fəaliyyəti zamanın ölçüsündə zəngin və maraqlı görünür. Zəkası, istedadı və məxsusi keyfiyyətləri ilə fərqlənən Ofelya xanım sağlam mənəvi ideyaları ilə fikirlərini ifadə edərək, insanları nəcib məqsədlərə yönəltmək üçün ziyalılıq mövqeyini hər zaman ortaya qoyub. Azərbaycan ziyalısına xas dəyərləri üzərində cəmləşdirən Ofelya xanım bu gün onilliklərin hesabatında Ofelya xanım şair, publisist və pedaqoq olaraq xarakteristikasını, cizgilərini tərcümeyi-halına həkk edir. Ziyalı ailəsində dünyaya göz açan Ofelya xanımın atası Mürsəl Nurulla oğlu Mürsəlov və anası Ceyran xanım Məcid qızı Böyük Vətən müharibəsinin iştirakçısı və veteranları olmuşlar.***



Bir insan taleyinə naxış olan uğurları Ofelya xanım gənclik dövründə yaşıdlarından fərqlənən bir xanım olduğundan, hələ tələbə ikən göstərilən etimadın qarşısında həyat yoluna həkk etmişdir. Belə ki, Bakı Dövlət Universitetinin filologiya fakültəsinin tələbəsi olan Ofelya xanım 1971-ci ildən respublika tələbələri adından 13-cü çağırış Azərbaycan Respublikasının ilk tələbə deputatı seçilmişdir. Bu etimad ona Ulu Öndər Heydər Əliyev tərəfindən göstərilmişdir. Tələbə ictimaiyyətini ətrafında birləşdirən, fikirləri ilə yaşıdlarının ictimai həyatına birbaşa müdaxilə edərək, onların həyat yoluna işıq salmağa cəhd göstərən Ofelya xanım potensialından yararlanaraq, yaşıdlarının sevimlisi olmuş, eləcə də, vətənpərvərlik hissləri ilə torpağına xidməti amal olaraq həyat yoluna vəsiqə etmişdir. Elmi potensialını artırmaq, Azərbaycan üçün gərəkli ziyalıya çevrilmək məqsədi ona 1976-cı ildə Stavropol vilayətinin Orconikidze (indiki Vladiqafqaz) şəhərində osetin, çeçen-inquş dilləri üzrə qiyabi aspiranturaya daxil olmağa sövq etmişdir. Təhsilini başa vuran Ofelya xanım 1978-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi pedaqogika bölməsində baş müəllim vəzifəsinə təyin olunmuşdur. Elə həmin zamandan başlayaraq, bu günə qədər 40 ildir ki, bu təhsil ocağında pedaqoji fəaliyyətini davam etdirir. Yüksək ixtisaslı kadrların hazırlanması sahəsində səmərəli pedaqoji fəaliyyətinə görə və universitetin 90 illik yubileyi münasibətilə təhsil nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

Onu da vurğulayaq ki, o, 1985-1989-cu illərdə Moskva Beynəlxalq Hüquq İnstitutunun qiyabi şöbəsində təhsilini davam etdirmişdir.

Mənalı ömür yolu keçən Ofelya xanım çoxşaxəli həyat yolunda bir sıra kitabların müəllifi kimi də tanınıb. Pedaqoji fəaliyyətdə olduğu illərdə, o, bir çox elmi məqalələrin və tezislərin müəllifinə çevrilib. Dinin elmi fəlsəfəsini yaradıcılığında şərh edən və onun tərəflərinin izahına yaradıcı nöqteyi-nəzərdən yanaşan Ofelya xanımın "Qurani-Kərimdə Allahla insan münasibətləri", "Məhəmməd Peyğəmbərin kəlamları və insan ruhunun tərcüməsi" məqalələri, məhz bu mövzuda qələmə alınan nümunələrdir.



Azərbaycanın ictimai-siyasi və mədəni həyatı onun yaradıcılıq yolundan kənar ötməmişdir. Belə ki, "Heydər Əliyev təhsil sahəsindəki islahatların banisidir", "Mir Cəlal Paşayev: görkəmli nasirin şəxsiyyətinə və yaradıcılığına tarixi və müasir baxış", "Unudulmaz alim Mir Cəlal Paşayev" və digər məqalələri Ofelya xanımın araşdırmaları, Azərbaycan tarixinə və ədəbiyyatına olan məhəbbətinin fövqündə qələmə alınmışdır. Daim axtarışda olan və zaman üçün aktual olan mövzulara müraciət edən Ofelya xanım "Heydər Əliyev fenomeni elmin inkişafında sönməz çıraqdır", "Mir Cəlal Paşayev: şəxsiyyətinə və yaradıcılığına tarixi və müasir baxış" tezisləri elmi konfransların materialları əsasında ərsəyə gəlmişdir. Bütün bunlarla yanaşı, onun elmi əsərləri də yaradıcılığını şaxələndirən amil olaraq diqqətini çəkir. Belə ki, "Qurani-Kərmdə əxlaq tərbiyəsi" "Qurani-Kərimdə elmi biliklərin mənimsənilməsi", "İnam tərbiyəsi haqqında", "Mir Cəlal Paşayev hekayələrində vətənpərvərlik motivləri", "Mir Cəlalın satirik və yumoristik hekayələrində gülüşün tərbiyəvi əhəmiyyəti" və onlarla belə elmi əsərləri pedaqoji tədqiqatların axtarış və tapıntıların müqabilində geniş oxucu kütləsinə təqdim edilmişdir. Bu nümunələrin hər birində Ofelya xanım insan düşüncəsinə təsir edən, onun daxili dünyasına nüfuz edən və cəmiyyətə sağlam ruhlu insanların tərbiyə olunmasına xidmət edən dəyərləri qabartmış və öz düşüncəsinin süzgəcindən keçirən hər bir ali hissələri bu və ya digər əsərlərində əsas xətt kimi təqdim etmişdir.

Onun yaradıcılığının bir qolunu poeziyası təşkil edir. Fikirlərini bədiiləşdirən, nəzmə köçürən Ofelya xanımın "Mənim ömür karvanım", "Allaha inanmaq lazımdır" kitablarından, məhz qapalı dünyasından soraqlar alırıq. Uşaq yaşlarından jurnal və qəzetlərində şeirləri ilə çıxış edən Ofelya xanım hələ tələbə ikən fəhlə yataqxanalarında ədəbi-bədii gecələrdə şeirləri ilə insanların qəlb dünyasına nüfuz edə bilmişdir:

Ötüb keçən gəncliyi yada salma, ey könül,
Onsuz da olub keçən dönməyəcək geriyə.
Köçüm karvan yolunda bir az əylən,
ey ömür,
Hardasan, ey qismətim? Qayıt,
dönüm sevgiyə!..

Hər sətir ömürdən bir nişan və naxışdır. Sənət dünyası, sözünün gücü fikir və zəkasının qüdrəti tək meydana çıxır. Təxəyyülündə yaranan hikməti nəzmə köçürərək, təqdim etdiyi əsərlərdə oxuculara nəyə qadir olduğunu bir ziyalı kimi çatdıra bilir. Bu keyfiyyətlər onun gözəl əsərlər yazmasına səbəbdir. Daxili tələbat və istedadı ilə ədalət və vicdanın diqtəsinə, daxilindən gələn mənəvi səsə qulaq asaraq yazıb-yaradır. Həyat hadisələrinə, birmənalı olaraq yanaşır, böyük fikirləri ilə yaradıcılıq təxəyyülünə məxsus olan dəyərləri ortaya qoya bilir. Bu günə qədər onun çap olunan əsərləri zamanın insan təfəkkürünə diqtəsindən yaranıb. Onların hər birinin süjeti, məhz yaşanılan həyatın təsir gücündən qidalanıb. Səmimi qələmin vərəqlər üzərinə saldığı ştrixlər Ofelya xanımın sənət görüşlərinin məcmusudur. Yaradıcılığa gedən yollar, sənət meyarlarının özündə əxzi, axtarışlar, ədəbiyyata münasibətlər və s. bir ömrün yaşantılarını açıqaydın şəkildə ortaya qoyur. İllərini hədər verməyən və Tanrının ona bəxş etdiyi ömrü yazıb-yaratmağa həsr edən Ofelya xanım zamanın diqtəsini tez həzm edib, onu süzgəcindən keçirərək, məzmun və ideya cəhətdən mükəmməl olan şeirlərə imza atmışdır. Düşüncəsindən süzülən fikirlər yaşadığımız aləmin ağlı- qaralı zolaqlarından soraq gətirir.

Şeirlərində müdrik hissləri, ali duyğuları dayanır Ofelya xanımın. Bu dəyərlərdə gözəllik anlayışını bəşər tarixinə həkk etmək dayanır. Müasir həyatımızda belə nəcib duyğulu insanların ömür payını Tanrı zamanın ixtiyarında əbədiləşdirir. Ofelya xanımın yaradıcılıq dünyasını zinətləndirən "Etiraf", "İstəmədən doğuluruq", "Vətən nəğməsi", "Şəhidlərə", "Şəhidlərin nəğməsi", "Dünya" və digər şeirlərində daxili dünyasının çırpıntıları və vətən sevgisi özünü büruzə verir:

Qəlbində səslənir hər zaman, hər an,
Könlümün vüqarı, vətən nəğməsi.
Döyünür eşqinlə ürək anbaan,
Yurdumun baharı vətən nəğməsi.

Mübariz ruhlu Ofelya xanım ictimi-siyasi hadisələrdə vətədaş mövqeyni ortaya qoyur. 1990-cı ildə 21 yanvar tarixində keçirilən Ali Sovetin sessiyasında iştirak edən ziyalı xanım elə həmin gün qələmə aldığı "Şəhidlərin məzarına" adlı şeirində vətənin istiqlalı və müstəqilliyi yolunda şəhid olmuş oğulların məğrurluğundan söz açaraq, qatil düşmənin cəzasız qalmayacağını diqqətə çəkir:

Biz dözürük əzabına zamanın
Yerdə qalmaz ah-naləsi insanın.
Tarixlərə yazılacaq adınız,
Haqq verəcək qatillərin fərmanın.

Zərnişan Əliyevanın "Ofelya dünyası, Ofelya fenomeni" kitabında onun tərcümeyi-halından səhifələr, həyata baxış və münasibəti, keçdiyi yolun eniş və yoxuşu diqqətə çəkilir. Bu kitabda ziyalıların Ofelya xanım haqqında söylədiyi fikirlərin cəmində psixoloq, təvazökar insan, istedadlı qələm sahibi və ən əsası isə gözəl psixoloq-pedaqoq olması diqqəti çəkir. Universitetin pedaqogika kafedrasının dosenti Bəxtiyar Borçalı "Mən Ofelya xanımı xarakterizə etməkdə acizəm. Ona görə ki, Ofelyanı səciyyələndirmək üçün gərək onun özü qədər insanları oxuya və duya biləsən. Ən azı güclü bir psixoloq ola biləsən" - yazaraq, onun istedadlı və poetik söz qüdrətinə malik olmasını qeyd edir. Cəsarətli, sözünün gücü, inamı, sadəliyi və paklığı ilə seçilən Ofelya xanım bir ömür yolunda portretinin yaradılmasına müvəffəq olmuş, şövqlə, böyük sevgi ilə xalqına bəxş etdiyi həyatın müdriklik, kamillik dövrünü yaşamaqda davam edir. 14 iyul tarixində yubileyini - yaşadığı onilliklərin baharını qeyd edəcək. Ofelya xanıma Tanrının bəxş etdiyi ömür karvanını beləcə mətanətlə və alnıaçıq davam etdirməsini arzulayırıq.

***Nəzakət ƏLƏDDİNQIZI***

## İyunun 30-da keçirilən imtahanın nəticələri açıqlandı

Dövlət İmtahan Mərkəzi (DİM) iyunun 30-da keçirilən dövlət qulluğuna qəbul üzrə imtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş şəxslərin nəticələri barədə məlumat yayıb. DİM-dən SİA-ya verilən məlumata görə, imtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş 1376 namizəddən 1231-i ali təhsil müəssisələrinə qəbul olunub. Bu şəxslərdən 492-si imtahandan uğurla keçib. İmtahanlarda toplanan bal intervalları, bal intervallarına görə dövlət qulluğuna qəbul üzrə test imtahanından qeydiyyatdan keçənlərin və imtahanlarda uğur qazananların sayı, faiz göstəriciləri barədə məlumatı DİM-in internet səhifəsindən əldə etmək mümkündür. 301-400, 401-500, 501-600, 601-700 intervalında bal toplayanların müvafiq olaraq 35,4 faizi, 50,5 faizi, 48,7 faizi, 56,3 faizi test imtahanından uğurla keçib. Əvvəlki imtahanlarda olduğu kimi bu imtahanda da uğur qazananların faiz göstəricilərinin bal intervallarına mütənasib olaraq artımı müşahidə olunur. Qeyd etmək lazımdır ki, müxtəlif illərdə ali təhsil müəssisələrinə qəbul zamanı müsabiqə şərtləri fərqli olmuşdur. Daha aşağı nəticə göstərərək ali təhsil müəssisələrinə qəbul olan şəxslər əsasən qabiliyyət tələb edən ixtisasların müsabiqəsində iştirak edənlərdir.

# Rusiya Paşinyanı məhv edəcək

## *Baş nazir Rusiya-Qərb arasında var-gəl edir*



***Bu gün Ermənistanda davamlı xarakter alan aksiyalar, onu deməyə əsaslanır ki, işğalçı ölkənin baş naziri Nikol Paşinyan da Qərbə meyillilik siyasəti Sarkisyanın siyasəti ilə üst-üstə düşür. Ancaq bu siyasət Rusiya ilə dostluq və müttəfiqlik əlaqələrinin davam edəcəyi vədlərinin sözdə olduğunun şahidi oluruq. Xatırladaq ki, iyunun 14-də Moskvaya səfəri zamanı baş nazir Paşinyan Rusiya ilə münasibətlərdə heç bir problem olmadığını və ənənəvi kursa sadiq qalacağını bildirmişdi. Lakin Paşinyan İrəvana döndükdən bir gün sonra Rusiyanın Ermənistanın bəzi ət və balıq məhsullarının idxalına qadağa qoyması, eləcə də, baş nazirin dərhal Brüsselə səfər etməsi Moskva ilə İrəvan arasında ciddi mübahisə predmeti olan məsələlərin meydana çıxdığından xəbər verir.***

Beləliklə, politoloqların sözlərinə görə, 3 aya yaxın müddətdə baş nazir postuna yiyələnən Paşinyana qarşı Rusiya cəzalandırıcı addımlar ata bilər. Politoloq Stepan Qriqoryanın verdiyi məlumata görə, Ermənistan Gümrüdə Rusiya hərbi bazasının yerləşdiyi torpaq sahəsinə görə icarə haqqını artırmağa hazırlaşır.

Qriqoryan baş nazir Nikol Paşinyanın həyat yoldaşının baş redaktoru olduğu "Haykakan jamanak" qəzetində dərc etdirdiyi və Ermənistan-Rusiya münasibətlərinə həsr olunmuş məqaləsində qeyd edir ki, Rusiya hərbi bazaları üçün təmənnasız və müddətsiz torpaq sahəsi ayrılması ədalətsiz və misli görünməmiş hadisədir. O, qeyd edir ki, hətta Rusiyaya heç də az "sadiq" olmayan Belarus, Tacikistan və Qırğızıstan da öz ərazilərində Rusiya hərbi bazalarının yerləşdirilməsinin müqabilində xeyli məbləğdə pul alırlar. "Metsamor" AES-in Rusiyanın ixtiyarına verilməsi, bir sıra iri sənaye obyektlərinin və az qala ölkənin bütün energetika sisteminin Rusiyaya "hədiyyə" edilməsi, ona gətirib çıxarıb ki, Ermənistan regionda bütün əsas "kozır"larını həmişəlik itirib.

"Eyni zamanda, Ermənistanda mövqelərini xeyli möhkəmləndirdikdən sonra Rusiya atom yanacağının qiymətlərini kəskin qaldırıb və atom-elektrik stansiyasının bağlanmasından əldə edə biləcəyi bütün üstünlüklərdən istifadə etməyə çalışır"-Qriqoryan belə qeyd edir. Bu isə, o deməkdir ki, Ermənistanın yeni hökuməti əvvəlki kimi ölkəni Rusiyanın ödənişsiz istifadəsinə vermək fikrində deyil. Yəni Paşinyan Rusiyadan 102-ci hərbi bazanın yerləşdirilməsinə görə icarə haqqı tələb etmək niyyətindədir. Eləcə də, energetika sektorunda Rusiyanın inhisarına son qoymaq istəyir. Ancaq Rusiyanın Paşinyanın bu planları ilə razılaşacağı inandırıcı görünmür. Ona görə də, yaxın perspektivdə Kremlin Paşinyana cavab zərbəsi endirəcəyi ilə bağlı siyasi proqnozların sayı artır. Bəzi politloqlar hesab edir ki, futbol üzrə dünya çempionatı başa çatana qədər Rusiya-Ermənistan münasibətlərinə aydınlıq gələcək. Yəni çempionat başa çatdıqdan sonra Rusiya Paşinyana qarşı cəzalandırıcı addımlar ata bilər.

### Nikol Paşinyan Sarkisyanlaşıb

Yaranmış vəziyyəti şərh edən politoloq Tofiq Abbasovun sözlərinə görə, Ermənistanın siyasi sistemi tənəzzül vəziyyətinə düşdüyündən Paşinyan hökumətinin yenilik etmək imkanları məhduddur: "Nikol Paşinyan Serj Sarkisyanın siyasi xəttini davam etdirməyə məcburdur. Ancaq həmin xəttə özünün əlavələrini etməkdə israrlı görünür. Bu əlavələr də, ilk növbədə, Qərbyönümlü siyasətin elementlərindən ibarətdir. Yəni Rusiya ilə münasibətlərin yüksək səviyyədə olması, Paşinyanın Putinlə keçirdiyi görüşlər daha çox gəlişi gözəl sözlər və real olmayan vədlər və şüarlardır. Əslində, heç kimə sirr deyil ki, Ermənistanda baş vermiş inqilab Qərbin planı və resursları hesabına həyata keçirilib. Bu inqilabın kökündə anti-Rusiya meyilləri dayanır. Paşinyanın son addımları və Ermənistandan gələn açıqlamlar onun Rusiyanın başının altına yastıq qoymağa çalışdığını göstərir.

### Paşinyan Qərb- Rusiya arasında vurnuxur

Siyasi ekspertlər Ermənistanın baş nazirinin iki qütb arasındakı vurnuxduğu qənaətindədirlər. O zaman sual yaranır : Paşinyan qərbpərəstdir, yoxsa rusiyapərəst? Yaxud yeni hökumət başçısının arxasında dayanan güc Qərbdən idarə olunur, yoxsa Kremldən? Bu, faktdır ki, N.Paşinyan ortaya iddialarını qoyana qədər qatı Rusiya əleyhdarı kimi görünürdü. Parlamentdəki çıxışlarında Ermənistanın Rusiya asılılığından çıxmasını tələb edən çıxışlarını ermənilər bu günlərdə yaxşı xatırlayırlar. Ancaq onun Qərbə reveranslar etməsi də diqqət çəkir.

Məsələ ilə bağlı fikirlərini bildirən Milli Məclisin deputatı Sahib Alıyev qeyd edib ki, Ermənistanda hakimiyyət dəyişikliyi baş verməyib, çünki orada sözün əsl mənasında, hakimiyyət yoxdur: "Daha dəqiqi, Ermənistanı oradakı hakimiyyət idarə etmir, hakimiyyətdəkiləri yönəldənlər idarə edir".

Q.Hüseynli Paşinyanın rus amili fonunda Qərblə ciddi bazarlığa girişəcəyini qeyd edib: "Ermənistan əhalisi, uzağı 3-4 aya, yeni baş nazirdən maddi rifahın yüksəldilməsini tələb edəcək. Ermənistan kasıb ölkədir və bütün sənaye müəssisələri borc qarşılığında Rusiyaya satılıb. Paşinyan erməni hiyləgərliyinə xas metodla Qərbdən çoxlu vəsait qoparа bilər. Qərb isə böyük vəsaitlərin qarşılığında rus bazalarının Ermənistandan çıxarılmasını və Rusiya ilə imzalanmış uzunmüddətli hərbi müqavilələrin birtərəfli qaydada ləğvi şərtini qoya bilər. Qərbin istəkləri bununla da bitməyəcək, Paşinyandan mütləq NATO-nun Cənubi Qafqaza doğru genişlənməsi istiqamətində addımlar atması istəniləcək. Əks halda, Ermənistana lazımi siyasi və maddi dəstəyi verməyəcək".

Paşinyanın üçüncü bir çıxış yolunun olmadığını deyən politoloq əks-addımın Ermənistanda yeni rəngli inqilabla nəticələnə biləcəyini vurğulayıb. "Qərblə əlaqə, sadəcə, demokratiya ilə bitmir, həm də Ermənistanın bəzi Avropa strukturlarına inteqrasiyasını gündəmə gətirir. Yəni təkcə siyasi deyil, hərbi inteqrasiya da lazım olur. Bu isə Ermənistanın çox mürəkkəb mərhələdən keçməsinə gətirib çıxaracaq. Bunun üçün təkcə Gürcüstanın keçdiyi yola nəzər salmaq kifayətdir. Ermənistanın bu yolu necə keçəcəyi, Rusiya ilə münasibətlərin taleyi və Qərblə əlaqələrin gələcək formatı çox ciddi məsələlərdir. Paşinyan ən optimal variantı tapa bilməsə, Ermənistan məhv olacaq".

**A.SƏMƏDOVA**

## Axtarışda olan 24 nəfər saxlanılıb

Respublikanın daxili işlər orqanları tərəfindən ötən gün qeydə alınmış 96 cinayət faktından 12-nin üstü "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, əvvəlki dövrlərdən bağlı qalmış altı cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 24 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 19 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş dörd yol-nəqliyyat hadisəsi nəticəsində bir nəfər ölüb, doqquz nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklə əlaqəli iki fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 17 nəfər saxlanılıb.

# Daşkəsən rayonu inkişaf yolunda

## *Rayonda 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafın yekunları və qarşıda duran vəzifələrə dair hesabat yığıncağı keçirilib*



Dünən Daşkəsən rayonunda 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon hesabat yığıncağı keçirilib.

Yığıncağı giriş nitqi ilə açan Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev son günlər Gəncə şəhərində baş vermiş hadisələrlə bağlı münasibət bildirib. Rayon rəhbəri bildirdi ki, iyulun 3-də ölkədəki sabitliyi, ictimai asayişi pozmağa çalışan əvvəlcədən hazırlıqlı olan cinayətkar, kriminal yönümlü şəxsin Gəncə şəhər icra hakimiyyətinin başçısı Elmar Vəliyevə və iki polis əməkdaşına qarşı məqsədyönlü şəkildə planlaşdırılmış terror aktı törədildiyini söyləyib: "İulun 10-da isə insanları konkret yeri və vaxtı göstərilərək qanunsuz etiraz aksiyaları keçirməyə təhrik edən radikal dini yönümlü qüvvələr iğtişaş törətməyə cəhd göstəriblər. Hadisə zamanı radikal dini təmayüllü bir qrup şəxsin küt və kəsici-deşici alətlərlə xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarına hücum etməsi nəticəsində, 2 polis zabiti qətlə yetirilərək şəhid olublar".



Ə.Abıyev onu da vuurğulayıb ki, Azərbaycana düşmən münasibətdə olan məkrli qüvvələrin bütün cəhdlərinə baxmayaraq, hadisə ölkədə heç bir çaxnaşma, xaos və qarşıdurma yaratmadı: "Çünki Azərbaycan hökuməti əhalinin təhlükəsizliyini qətiyyətlə təmin etmək iqtidarındadır və dövlət etibarlı əllərdədir. Xalqımızın belə məqamda dövlətə dəstək olması, yüksək şüurluluq, həmrəylik göstərməsi, ölkədəki sabitliyi pozmağa çalışan qüvvələrin çağırışlarını, birmənalı olaraq, pisləməsi çox mühüm tarixi bir missiyanı - Gəncə vətəndaşlarının dövlətə, iqtidara, hakimiyyətə olan inamını və etimadını bir daha da təsdiqlədi. Bütün bunlara baxmayaraq, Azərbaycanda ictimai-siyasi sabitlik yüksək səviyyədə təmin olunub, Azərbaycan dövləti vətəndaşlarının təhlükəsizliyini kifayət qədər qoruyur, xalq-iqtidar birliyi də sarsılmazdır və əbədidir".

Tədbir iştirakçıları şəhid olan polis zabitlərinin ruhunu yad edərək, ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veriblər.

Sonra Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, respublikamızın digər rayonlarında olduğu kimi, Daşkəsən rayonunda da 2018-ci ildə bir çox uğurlu işlər və nailiyyətlər əldə olunubdur: "Respublikamızın digər rayonlarında olduğu kimi, Daşkəsən rayonunda da 2018-ci ilin 6 ayı ərzində, bir çox uğurlu işlər və nailiyyətlər əldə olunmuşdur. Belə ki, iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilin eyni dövrünə nisbətən müxtəlif sahələr üzrə xeyli artmışdır. Rayon ərazisində bir sıra tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işləri görülmüşdür və hazırda da həmin işlər davam etdirilməkdədir. Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı tərəfindən maliyyələşən "Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması" işlərində son tamamlama işləri yerinə yetirilir. Artıq Daşkəsən şəhərinin çox hissəsi (90,7 %) ekoloji cəhətdən təmiz və fasiləsiz olaraq içməli su ilə təmin olunur. Möhtərəm Prezident Cənab İlham Əliyev "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 mart tarixli 2754 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalamış, həmin Sərəncama əsasən, Daşkəsən şəhəri Alunitdağ qəsəbəsinin içməli su ilə təminatının yaxşılaşdırılması nəzərdə tutulan yaşayış məntəqələrinin siyahısına əlavə olunmuş və həmin sahə üzrə müəyyən işlər görülmüşdür. Xoşbulaq kənd həkim məntəqəsində təmir işləri aparılmışdır. Şahvələdli kənd ümumi orta məktəbində yeni modul tipli məktəb binası quraşdırılır. Azərbaycan Respublikası Prezidentinin Ağstafa, Daşkəsən, Gədəbəy, Göygöl, Tovuz və Şəmkir rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında 5 aprel 2018-ci il tarixli Sərəncamı olmuşdur. Sərəncama əsasən, Daşkəsən rayonunun Almalı kəndində və Daşkəsən qəsəbəsində hər birində 56 şagird yerlik, Gurbulaq kəndində isə 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması nəzərdə tutulmuşdur. 2018-ci ildə Daşkəsən şəhərində 7 çoxmərtəbəli yaşayış binasının təmiri nəzərdə tutulmuş və artıq həmin işlərin icrasına, eyni zamanda, Daşkəsən şəhərində tikinti-təmir, abadlıq işlərinə, o cümlədən, istinad divarlarının təmir işlərinə başlanılmış və hazırda həmin işlər davam etdirilir".

Toplantıda əldə olunmuş nailiyyətlərlə yanaşı, həmçinin, həllini gözləyən digər problemlər və onların aradan qaldırılması yolları müzakirə olunub. Yığıncağın sonunda toplantı iştirakçıları adından ölkə Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

**R.KAMALQIZI**

TƏRS BAXIŞ

# Dağıdıcı müxalifət hakimiyyətə niyə "dəstək" verdi?

*Və ya quyruq qapı arasında qalanda*

**Bəllidir ki, dağıdıcı müxalifət Gəncə olayları baş verər-verməz, sosial şəbəkələrdə edilən itaətsizlik çağırışlarına istər dolayı, istərsə də birbaşa yolla dəstək göstərdi.**

Daha doğrusu, bu dəstək hələ Mingəçevirdə baş verən qəzadan sonra başlamışdı və bu məsələdə daha çox canfəşanlıq edən tərəf AXCP və Müsavat partiyaları oldu. Lakin Azərbaycan ictimaiyyətinin bu hadisələri, birmənalı olaraq, hiddətlə qarşılaması, təxribatları, terror hadisələrini lənətləməsi, ölkədə mövcud olan sabitliyə və dövlətçilik maraqlarına dəstək göstərməsi birdən-birə dağıdıcıların "siyasi baxışlarını" dəyişərək, onların "ümumxalq maraqlarından" çıxış etmələrinə səbəb oldu. Hətta iki-üç gündür ki, müxtəlif saytlarda "Müxalifətdən hakimiyyətə tam dəstək" sərlövhəli başlıqlarla informasiyalar verildi.

## Dağıdıcı müxalifət "liderləri" yaxşı bilirlər ki, çoxluq onlar tərəfdə deyil

Söz yox ki, ənənəvi düşərgədə elə müxalifət partiyaları da mövcuddur ki, onlar bir neçə istisna hallar olmaqla, öz fəaliyyətləri dövründə dövlətçilik prinsiplərinə xələl vura biləcək heç bir siyasi addımlara getməyiblər. Əlbəttə ki, AXCP və Müsavat kimi partiyalardan fərqli olaraq. Hətta yaxın tariximizə müraciət etsək, görərik ki, 2003-cü ilin 15-16 oktyabr, 2005-ci ilin noyabr hadisələrində, eləcə də, həmin illərdən bu yana baş verən icazəsiz aksiya və mitinqlərdə, seçki dövrlərində qanunları pozan, ölkədə süni ajiotajlar yaradaraq, itaətsizliyə çağırışlar edən partiyalar, əsasən, cəbhəçilər və müsavatçılar olub.

Gəncə hadisəsi də, necə deyərlər, cəbhəçilər və müsavatçılar üçün "göydəndüşmə" oldu və onlar, ilk olaraq, sosial şəbəkələrdə, xüsusilə, xarici ölkələrdən idarə edilən internet resurslarında dövlətçilik əleyhinə çıxışlara başladılar. Ancaq sonradan, bu çıxışların onlara heç bir müsbət nəticə vermədiyini gördükdən, ictimaiyyətin və xalqın onlara heç bir dəstək göstərmədiyini anladıqdan sonra, ard-arda bəyanatlarla çıxış edərək, hakimiyyətin terror və təxribata qarşı apardığı qətiyyətli mübarizəsini guya ki, dəstəklədiklərini elan etdilər. Buna isə el arasında quyruğu qapı arasında qalmaq deyərlər. Çünki dağıdıcı müxalifət "liderləri" yaxşı bilirlər ki, çoxluq onlar tərəfdə deyil, dövlətin və Prezidentin tərəfindədir və əgər belə davam etsəydilər, əllərində qalan siyasi partiyalarını çox qısa zamanda itirə bilərdirlər. Ona görə də, dərhal yüksək dərəcədə fırlanaraq, "hakimiyyətə dəstək" kontekstini ortaya qoymaq məcburiyyətində qaldılar. Ancaq nə xalqın, nə də xalqın, birmənalı olaraq, dəstəklədiyi hakimiyyətin belə ayağısürüşkən və dırnaqarası müxalifətin qondarma dəstəyinə heç bir ehtiyacı yoxdur. Buna 100 % əmin ola bilərlər...

**Rövşən NURƏDDİNOĞLU**

# Ələkçinin qıl verəni

*Bu ifadə Leyla Yunusa aiddir*

Zaman-zaman Azərbaycana qarşı çirkin qarayaxma kampaniyası aparılıb, sabitliyin pozulmasına cəhdlər göstərilib. Ancaq dövlətimizin heç bir qüvvənin qarşısında əyilməməsi, öz mövqeyini qətiyyətlə müdafiə etməsi, ardıcıl və prinsipial siyasətidir. Odur ki, sifarişlə çalışan bu qüvvələr nə əvvəllər öz qərəzli planlarını reallaşdıra biliblər, nə də bundan sonra çirkin niyyətlərinə nail ola biləcəklər. Çünki Azərbaycanda güclü xalq - iqtidar birliyi var və dəfələrlə bu birlik müxtəlif kritik durumların önlənməsində əsas rol oynayıb. Gəncədə baş verən hadisələr də bu kontekstdə istisna deyil. Adi kriminal hadisəni siyasi avantüraya çevirmək, miqyasını böyüdərək süni rezonans yaratmaq, bununla da, sabitliyi pozmaq və ən nəhayət, Azərbaycanda öz xain niyyətlərini həyata keçirmək istəyən xarici quvvələrin muzdlu nökərləri məkrli planlarını həyata keçirə bilmədilər.

Çünki Azərbaycan özünü müdafiə etməyə qadir qüdrətli dövlət olmaqla yanaşı onun vətəndaşı da yüksək siyasi mədəniyyətə malik olduğundan, heç zaman yad qüvvələrin yedəyində getməyib. Bulanıq suda balıq tutmaq istəyənlər bilməlidir ki, Azərbaycan vətəndaşını öz xəbis niyyətinin icraçısına çevirə bilməyəcəklər.

Bu gün Azərbaycanı tərk etdikdən sonra uzun müddət susqun qalan Sülh və Demokratiya İnstitunun direktoru, ələkçinin qıl verəni Leyla Yunusun yenidən hay-küy qaldırması təəccüb doğurmur. Çünki bu gün Azərbaycan ictimaiyyətinə L.Yunusun kim olduğu bəllidir. L.Yunusun Azərbaycan xalqı və dövləti əleyhinə apardığı təbliğat kampaniyası ermənipəst qüvvələrin ölkəmizə qarşı törətdiyi məkrli əməllərdən heç də fərqlənməyib. Həbsdən azad olunmasına görə, təşəkkürlər etmək əvəzinə, yenə də xarici havadarlarının istəklərini yerinə yetirməyə cəhd göstərir. Bir də pozucu əməllərini sifarişlə həyata keçirən şeytan cildində olan Taleh Bağırzadədən sonra Yunis Səfərovun müdafiəsinə qalxması da heç təəccüb doğurmadı. Hansıki hər ikisi şeytanla belə iş birliyi qurmaqdan çəkinməyən ünsürlərdir. Hər ikisi bir medalın iki üzüdür.

## Araz Əlizadə: "Leyla Yunus "Vətən" və "namus" anlayışı olmayan tamahkar və eqoist qrantyeyəndir"

"Mən çıxışlarımda dəfələrlə demişəm və bu gün də deyirəm, Allaha minnətdaram ki, 1991-ci ildə L.Yunusu mənim təşəbbüsüm ilə Azərbaycanın Sosial-Demokrat Partiyasının sıralarından kənarlaşdırdılar. O, elə əvvəldən ölkəmizə qarşı işləyən böyük ambisiyalı tamahkar və eqoist qadındır". Bu sözləri qəzetimizə ASDP-nin sədri Araz Əlizadə bildirib.

A.Əlizadə onu da vurğulayıb ki, "Vətən" və "namus" anlayışı bu qadın üçün heç bir əhəmiyyət kəsb etmir: "Bir də eyni xislətlilərin bir araya gəlməsi təbiidir. Bilirsiniz ki, ermənilər L.Yunusun qayınanasının milliyyətcə erməni olduğunu bildikləri üçün onu "milli qəhrəmana" çevriblər. Bu gün də L.Yunus yenidən "siyasi mübarizəyə" geri döndüyünü bəyan edərək, terrorçuluqda ittiham olunan Y.Səfərova qahmar çıxır.

Göründüyü kimi, məhz ölkə rəhbərliyinin bariz humanizm aktından yararlanaraq, azadlığa buraxılan zaman L.Yunus bu işdə xidməti olan tərəflərə ömrünün sonuna qədər minnətdar olduğu halda, yenə də hansı xislətdə olduğunu nümayiş etdirir. Bir də, atalar demişkən, qozbeli ancaq qəbir düzəldər.

**Rəfiqə HÜSEYNOVA**

# Gəncə hadisələrindən Əli Kərimlinin manipulyasiyası

*1994-cü ilin 21 may mitinqində üzərində partlayıcı maddə tapılmasına görə həbs edilən Əli Kərimli hələ də terrorçu xislətindən əl çəkmir*

**Dağıdıcı müxalif ünsürlər yenidən iş başına keçirək, təlimata və tapşırıqlara uyğun olaraq, məkrli fəaliyyətlərini qurmağa çalışırlar.**

Maraqlı məqam isə odur ki, müxalifər bu dəfə pozucu fəaliyyətini küçələrdə və meydanlarda deyil sosial şəbəkələr vasitəsi ilə həyata keçirməyə cəhdlər göstərir. Yenə də əsas rolda AXCP sədri Əli Kərimli və Müsavat başqanı Arif Hacıldır. Söz yox ki, onları bu cür anormal işə məcbur edən xarici anti-Azərbaycan qüvvələrdir. Dağıdıcı ünsürlər bununla xaricdəki məkrli qüvvələrdən və ermənipərəst dairələrdən qrant almağa ümid bəsləyirlər. Bu iddialarda hətta, bir-birinə də güzəştə getmirlər. Mübarizə fonunda tez-tez xaricdəki ağalarına bir-birləri haqqında kompramat ötürür, bununla da, önə çıxmaq, "birinciliyi" əldə etmək və radikal müxalifətin əsas siyasi siması kimi görünmək istəyirlər. Ancaq birmənalı şəkildə, demək olar ki, xaricdə oturan və oradan dağıdıcı müxalifəti istədikləri kimi idarə edən qüvvələrin bu dəfə də iflasla üzləşəcəkləri şübhəsizdir. Təbii ki, bununla, yenə də uduzan, xalqın gözündə bir qədər də cılızlaşan müxalifət partiyaları və onların liderləri olacaq.

## Xarici ağalarına boyun əyən müxalif

Baxmayaraq ki, hələ də, bəzi müxalif partiya sədrləri ifşa olunduqları ilə barışmayaraq, müxtəlif şoular yaratmaqla uduzmağa hazır olmadıqlarını nümayiş etdirməyə çalışırlar. Hətta Müsavat başqanı A.Hacılı, AXCP sədri Ə.Kərimli və onların ətrafında olanlar sosial şəbəkələr vasitəsi ilə xarici ağalarına işarə vuraraq, onlardan dəstək istəyirlər. Bu dəstək nədən ibarət ola bilər? Pul, yoxsa müəyyən plan. Təbii ki, hər ikisi bu günə qədər müxalifətə göstərilib. Yəni dağıdıcı müxalif ünsürlərə hərtərəfli maddi və mənəvi dəstə verilib. Bu halda, şübhə yeri qalmır ki, müxalifət beynəlxalq təşkilatlarda Azərbaycana zərbə vurulmasını, haqqında hansısa anorma qətnamənin qəbul edilməsini istəyir. Ancaq yanılırlar. Çünki Azərbaycan istənilən beynəlxalq təşkilatla ikitərəfli səmərəli əməkdaşlıq münasibətlərinə malikdir. Müxalif ünsürlərin bu əlaqələrə əngəl olmaları mümkünsüzdür. Olsa-olsa erməni lobbisinin himayəsi ilə xarici mətbu orqanlarda Azərbaycan əleyhinə antitəbliğar xarakterli məqalələr dərc oluna bilər ki, bu da ancaq "it hürər karvan keçər" məsələsi kimi dəyərləndirilir. Bir də ki, Ə.Kərimli kimilərin umacları şərdən-böhtandan yoğrulub. Lideri Əbulfəz Elçibəyi zamanında lağ obyektinə çevirən, nəhayətdə, onu zəhərləyən şəxsdən hər cür yaramazlıq gözləmək mümkündür. Halbuki onu siyasətçi kimi yetişdirən və formalaşdıran hakimiyyəti dönəmində ona ən yüksək dövlət vəzifəsini həvalə edən Elçibəy olmuşdur.



## Xəyanət və satqınlıq Əli Kərimlinin həyat tərzidir

Baxmayaraq ki, Ə.Kərimli Elçibəyin xidmətlərinin üstündən xətt çəkməyə və siyasətçi kimi yetişməsinin öz zəhmətinin bəhrəsi olduğunu nümayiş etdirməyə çalışır. İddialar da irəli sürür ki, Elçibəy gününü Kələkidə keçirdiyi halda, o, 1994-cü ildə Bakıya qayıdıb, birinci müavini qismində AXC-ni yenidən qurub və təşkilatlandırıb. Amma hansı hiyləgərliklərlə AXC-yə yiyələndiyi özü ilə yanaşı, cəmiyyətə də məlumdur. O da bəllidir ki, AXC sədrliyinə iddialı Pənah Hüseyn, İbrahim İbrahimli, İsa Qəmbər, Fazil Mustafa, Mirmahmud Mirəlioğlu, Fərəc Quliyev, İsgəndər Həmidov kimi nüfuzlu müxalif liderlərin kölgəsində qalmamaq üçün Ə.Kərimli hansı məzhəkələr qurub, şoular təşkil edib. Başlıcası, önə çıxmaq üçün ötən əsrin 94-cü ilinin 21 may mitinqində üzərində partlayıcı maddə aşkarlandığı üçün həbs edilən Ə.Kərimli qısa müddət sonra azadlığa necə çıxdığının təfərrüfatları siyasi prosesləri izləyən hər kəsə məlumdur. Bir məqam var ki, Ə.Kərimli qısa müddətli həbs tarixçəsində özünə sonrakı həyat yaşamında üzü qaranlıq gətirən əməllər sahibi kimi izlər qoyub. Bunu "Müasir Müsavat" partiyasının sədri Hafiz Hacıyev deyir. Sonradan H.Hacıyevin irəli sürdüyü faktları Müsavat başqanının keçmiş müavini, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu da təsdiqlədi. Həbsdən üzü qara çıxan Ə.Kərimli az sonra AXC-ni və bununla paralel olaraq "Yurd"u tam dağılmaqdan qoruya bildi. Bundan ruhlandıqda, lideri Ə.Elçibəyi sıradan çıxarmaq siyasəti apardı. Demək olar ki, qismən də olsa, məkrli niyyətinə nail ola bildi. Kollegial orqanlarda Ə.Kərimlinin iddiaları və təkifləri reallaşdı.

## Əli Kərimli istintaqa cəlb edilsə, bir sıra qaranlıq suallara aydınlıq gətirilər

Bu, azmış kimi, Ə.Kərimli özünə yaxın "Azadlıq", "Bu gün", "Çağ", "Ulus", "Aydınlıq", "Ayna" kimi qəzetlərdə Elçibəyi təhqir edən məqalələr dərc etdirdi. Beləliklə, Elçibəyi sıxışdırmağa müvəffəq oldu. Ən nəhayətdə isə, onun zəhərlənməsinə nail ola bildi. Amma bir məsələ var, "nə əkərsən, onu da biçərsən". Zamanında liderinə quyu qazan Ə.Kərimli bu gün etdiklərinin bədəlini ödəməkdədir. Düzdür, uzun illərdir xalqın iradəsinə, dövlətçiliyə qarşı çıxan, liderinə xəyanəti ilə özünə mənfi imic qazanan və antimilli və anti-Azərbaycan qüvvələrin əlində alət olan Ə.Kərimli uğursuzluqlarını örtbasır etməyə cəhdlər göstərir. Bu, azmış kimi, müəyyən məram və məqsədlərini anlamayan bir neçə gənci ələ alıb, onlar vasitəsi ilə sosial şəbəkələrdə dövlət və xalq əleyhinə şər və böhtan kampaniyası aparır. Heç şübhəsiz ki, Gəncə şəhərində iki polis zabitinin qətlə yetirilməsində Ə.Kərimlinin də rolu olub. Əgər hüquq-mühafizə orqanları Ə.Kərimlini tutub istintaqa cəlb etsə, bir sıra qaranlıq mətləblərə aydınlıq gətirilmiş olar.

**İ.ƏLİYEV**

# Valideyn və uşaqların münasibətlərinin tənzimlənməsi

***Ailə Məcəlləsi ailə üzvləri (ər-arvad, valideynlər və uşaqlar) arasında yaranan əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir, habelə, valideyn himayəsindən məhrum olan uşaqların tərbiyəyə götürülməsi qaydalarını müəyyən edir. Məcəllənin əsas vəzifələri ana və uşaqların mənafeyinin hərtərəfli müdafiəsi və hər bir uşağın xoşbəxt həyatının təmin edilməsi, uşaqlarda ailə və cəmiyyət qarşısında məsuliyyət hissinin tərbiyə edilməsidir. Uşaqların mənşəyinin müəyyən olunması, ailədə uşaqların hüquqları, valideynlərin hüquq və vəzifələri, valideynlərin və uşaqların aliment öhdəlikləri, valideyn himayəsindən məhrum olmuş uşaqların aşkar olunması və yerləşdirilməsi, övladlığa götürmə, uşaqlar üzərində qəyyumluq və himayə məsələləri bu Məcəllə ilə tənzimlənir.***

1 fevral 1999-cu il tarixli AR-in Əmək Məcəlləsinin 37-ci (Qadınların əmək hüququ və onun həyata keçirilməsində təminatları) və 38-ci (yaşı 18-dən az olan işçilərin əməyindən istifadənin xüsusiyyətləri) fəsilləri, bilavasitə uşaqlarla əlaqədar məsələlərə həsr edilmişdir. 247-ci maddə (Yaşı 18-dən az olan işçilərin əmək hüququ və onun xüsusiyyətləri), 248-ci maddə (Yaşı 18-dən az olan şəxslərin işə düzəlməsində təminatları), 249-cu maddə (İşə qəbul zamanı yol verilən yaş həddi), 250-ci maddə (Yaşı 18-dən az olan işçinin əməyinin tətbiqi qadağan olunduğu işlər), 251-ci maddə (Yaşı 18-dən az olan işçi tərəfindən ağırlığın qaldırılmasında məhdudiyyət qoyulan işlər), 252-ci maddə (Yaşı 18-dən az olan işçilərin tibbi müayinəsi), 253-cü maddə (Yaşı 18-dən az olan işçilərin əməyinin ödənilməsində güzəştlər), 254-cü maddə (Yaşı 18-dən az olan işçilərin gecə işlərinə, iş vaxtından artıq işlərə və istirahət günlərində işə cəlb olunmasının, habelə, ezamiyyətə göndərilməsinin qadağan olunması), 255-ci maddə (Əmək müqaviləsinin ləğv edilməsində yaşı 18-dən az olan işçilərin təminatı) məsələləri nəzərdə tutulmuşdur.

Nadir Adilov yazır: "AR Əmək Məcəlləsində müvafiq hüquq normaları ilə əmək münasibətlərində işçilərin və işə götürənlərin əmək, sosial, iqtisadi hüquqları və bu hüquqlarla bağlı müvafiq təminatların minimum səviyyəsi; AR Konstitusiyasının ikinci bölməsində nəzərdə tutulan əmək, istirahət, təhlükəsiz və sağlam şəraitdə işləmək hüququnun, habelə, digər əsas insan hüquqlarının və azadlıqlarının təmin edilməsi prinsipləri və qaydaları; AR-in bağladığı və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, BƏT-in Konvensiyalarına və digər beynəlxalq hüquq normalarına uyğun olaraq əmək münasibətlərinin yaranması, dəyişdirilməsi, onlara xitam verilməsi və bu münasibətlərin iştirakçılarının hüquqlarının mühafizəsi sahəsində işçilərin, işəgötürənlərin, habelə, müvafiq dövlət hakimiyyəti orqanlarının hüquqları və onların təmin edan normalar təsbit edilir.

28 dekabr 1999-cu il tarixli AR Mülki Məcəlləsində bir sıra müddəalar uşaqlarla bağlı məsələlərin tənzimlənməsinə həsr edilmişdir. Məsələn, 1107-ci (Öz hərəkətlərinin mənasını başa düşə bilməyən fiziki şəxsin törətdiyi mülki hüquq pozuntusu üçün məsuliyyət), 1121-ci (Ailə başçısının ölümü nəticəsində zərər çəkmiş şəxslərə zərərin əvəzinin ödənilməsi), 1136-cı (Nikahdankənar uşaqlar atanın vərəsələri kimi), 1193-cü (Mirasda məcburi pay anlayışı) maddələri və s. Daha sonra, 7 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların məhdud fəaliyyət qabiliyyəti, on altı yaşı tamam olmuş, yetkinlik yaşına çatmayanların tam fəaliyyət qabiliyyətli hesab edilməsi (emansipasiya), 14 yaşınadək olan yetkinlik yaşına çatmayanların fəaliyyət qabiliyyəti, 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların fəaliyyət qabiliyyəti, qəyyumluq və himayəçilik, qəyyumların və himayəçilərin öz vəzifələrinin icrasından azad və kənar edilməsi, qəyyumluğa və himayəçiliyə xitam verilməsi ilə əlaqədar müddəalar AR Mülki Məcəlləsində öz əksini tapmışdır".

AR Mülki Prosessual Məcəlləsi AR-in 28 dekabr 1999-cu il tarixli, 780-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. Mülki işlər üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin AR Konstitusiyasından, qanunlarından və digər normativ- hüquqi aktlarından irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır. Uşağın övladlığa götürülməsi proseduru və məhkəmədə baxılması qaydaları AR Mülki Prosessual Məcəlləsi ilə tənzimlənir.

11 iyul 2000-ci il tarixli AR İnzibati Xətalar Məcəlləsinin 51-ci (Uşaqların tərbiyə və təlimi vəzifələrinin valideynlər və ya onları əvəz edən şəxslər tərəfindən yerinə yetirilməməsi), 65-1-ci (Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında qanunvericiliyin pozulması) maddələri, bilavasitə bu problemə həsr edilmişdir. Bütövlükdə, AR İnzibati Xətalar Qanunvericiliyinin vəzifələri insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitariya-epidemioloji salamatlığını, ictimai mənəviyyatı, mülkiyyət, şəxslərin iqtisadi maraqlarını, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, idarəçilik qaydalarını qorumaqdan, qanunçuluğu möhkəmləndirməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir. Məcəllə uşaqların tərbiyə və təlimi vəzifələrinin valideynlər və ya onları əvəz edən şəxslər tərəfindən avaralığa cəlb edilməsinə görə inzibati məsuliyyət müəyyən edir. Yetkinlik yaşına çatmayanların xırda xuliqanlığına görə valideynlər və ya onları əvəz edən şəxslər məsuliyyət daşıyırlar.

Qeyd edilmiş inzibati xətalara dair işlərə yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar baxırlar.

30 dekabr 1999-cu il tarixli AR Cinayət Məcəlləsinin vəzifələri sülhün və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtısadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi: ətraf mühiti, AR Konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə, cinayətlərin qarşısını almaqdan ibarətdir. Bu vəzifələri həyata keçirmək üçün AR Cinayət Məcəlləsi cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə, digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir. Cinayət törədərək 16 yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir 14 yaşı tamam olmuş şəxs yalnız bir sıra ağır və xüsusi ağır cinayətlərin törədilməsinə görə cinayət məsuliyyətinə cəlb edilir. Cinayətin yetkinlik yaşına çatmayan şəxs tərəfindən törədilməsi cəzanı yüngülləşdirən hal kimi müəyyən edilmişdir. Maddə 179 - Yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə, maddə 171 - Yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız əməllərə cəlb etmə, maddə 172 - Övladlığa götürmə sirrini yayma, maddə 176 Uşaqlara və valideynlərə kömək göstərməkdən qərəzli boyunqaçırma cinayətlərinə görə məsuliyyət, Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər fəslində öz əksini tapmışdır. Daha sonra, AR Cinayət Məcəlləsinin 20-ci (Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi) və 14-cü fəsli (Yetkinlik yaşına çatmayanların barəsində cinayət məsuliyyətinin və cəzasının xususiyyətləri-maddə 84-92) bu zaman xüsusi qeyd edilməlidir.

14 iyul 2000-ci il tarixli AR Cinayət Prosessual Məcəlləsi cinayətin əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayəti törətməkdə təqsiriəndirilən şəxsin təqsirli olub-olmaması, habelə, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətməkdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayət təqibinin və müdafiəsinin hüquqi prosedurlarını müəyyən edir. Məcəllənin 50-ci fəsli (Yetkinlik yaşına çatmayanlar barəsində icraatın xüsusiyyətləri), bilavasitə uşaqlarla əlaqədar məsələlərə həsr edilmişdir. Bununla əlaqədar, bir sıra müddəalar da xüsusi qeyd edilə bilər. Məsələn, 429-cu (Yetkinlik yaşına çatmayanlar barəsində icraat zamanı müəyyən edilməli olan halları), 431-ci (Yetkinlik yaşına çalmayan barəsində cinayət işinin ayrıca icraata ayrılması), 432-ci (Yetkinlik yaşına çatmayan şəxs barəsində ibtidai istintaqın aparılmasının xüsusiyyətləri), 433-cü (Yetkinlik yaşına çatmayan şəxsin tutulması), 435-ci (Yetkinlik yaşına çatmayan şəxsin törətdiyi cinayət barədə cinayət işi üzrə məhkəmə baxışının xüsusiyyətləri) və s.

N.Adilovun fikrincə, 14 iyul 2000-ci il tarixli AR Cəzaların İcrası Məcəlləsinin vəzifəsi cəzaların icrası və çəkilməsi qaydalarını və şərtlərini tənzimləməkdən, məhkəmənin islah edilmə vasitələrini müəyyən etməkdən, məhkumların hüquq və azadlıqlarını, qanuni mənafelərini qorumaqdan ibarətdir. Yetkinlik yaşına çatmayan məhkumlar üçün cəzaçəkmə müəssisələri, tərbiyə müəssisələrində cəzanın icrası şərtləri, onlara tətbiq edilən tənbeh tədbirləri, tərbiyə müəssisələrində tədris-tərbiyə prosesinin təşkili ilə bağlı müddəalar yetkinlik yaşına çatmayan məhkumların azadlıqdan məhrum etmə növündə cəza çəkməsinin xüsusiyyətləri məcəllədə geniş formada öz əksini tapmışdır. Məcəllənin 72-ci maddəsinin 1-ci hissəsində deyilir ki, cəzaçəkmə müəssisələrində yetkinlik yaşına çatmayanlar yetkinlik yaşına çatanlardan, kişilər qadınlardan ayrılıqda saxlanılırlar. Bu zaman digər müddəalar da xüsusi qeyd edilməlidir. Məsələn, 92-ci (Hamilə və ya üç yaşına çatmayan uşağı olan məhkum qadınların maddi-məişət təminatının xüsusiyyətləri), 172-ci (Hamilə və azyaşlı uşaqları olan məhkum qadınlar barəsində cəzanın çəkilməsinin təxirə salınması) və s.

Bu istiqamətdə qəbul olunan qanunlardan biri də "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) məhkəməyə şikayət verilməsi haqqında" AR Qanunudur. Qanun AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş AR vətəndaşlarının hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) məhkəməyə şikayət verilməsi qaydalarının müəyyənləşdirilməsi, habelə, vətəndaşların hüquq və azadlıqların məhkəmə təminatı ilə əlaqədar yaranan münasibətlərin tənzimlənməsi məqsədilə qəbul edilmişdir.

AR-də insan hüquqlarının təmin edilməsi üzrə dövlətdaxili tədbirlərin görülməsində AR Prezidentinin imzaladığı normativ-hüquqi aktlar da mühüm rol oynayır. AR Prezidenti tərəfindən bu sahədə verilən əsas fərman və sərəncamlar kimi "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" AR Prezidentinin 2 avqust 1998-ci il Fərmanı; "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi barədə" AR Prezidentinin 18 iyun 1998-ci il Fərmanı; "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya üzrə AR-in ikinci dövr məruzəsinin baxılmasından sonra BMT-nin İşgəncələrə qarşı Komitəsi tərəfindən qəbul olunmuş yekun icmalında verilmiş tövsiyələrin həyata keçirilməsilə əlaqədar tədbirlər haqqında" AR Prezidentinin 27 sentyabr 2003-cü il tarixli Sərəncamı və s. qeyd etmək olar.

Daha sonra, "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" AR Prezidentinin 28 dekabr 2006-cı ü tarixli Sərəncamının 5-ci bəndində AR Konstitusiya Məhkəməsinə və AR Ali Məhkəməsinə tövsiyə edilmişdir ki, insan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarının məhkəmə təcrübəsində tətbiqini təmin etsinlər. Eyni zamanda, AR-in yeni beynəlxalq Konvensiyalara qoşulma imkanları da Sərəncamda xüsusi olaraq vurğulanır.

Bilavasitə, uşaq hüquqlarının müdafiəsi istiqamətində AR tərəfindən qəbul edilmiş mühüm dövlətdaxili normativ-hüquqi akt Uşaq Hüquqları haqqında 19 may 1998-ci il tarixli AR Qanunudur. Qanunun preambulasında deyilir ki, bu Qanun AR Konstutusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq AR-də uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir. Qanunun 3-cü maddəsində isə deyilir ki, uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir. Dövlət siyasəti milli və yerli xüsusiyyətlər nəzərə alınmaqla yaradılmış məqsədli uşaq sosial proqramları əsasında həyata keçirilir. Bu proqramların yerinə yetirilməsində dövlət orqanları ilə yanaşı, digər hüquqi və fiziki şəxslər də iştirak edə bilərlər.

Qanunun 5-ci maddəsinin göstərişinə görə, dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar. AR-in normativ-hüquqi aktları və müvafiq orqanların qərarları uşaq mənafelərinə zidd olmamalı və onların icrası uşaqların həyatına, inkişafına və tərbiyəsinə zərər gətirməməlidir. Uşağın hüquq və mənafelərini məhdudlaşdıran hər hansı əqd etibarsızdır.

5 fəsil və 45 maddədən (I fəsil - Ümumi müddəalar- maddə 1-16; II fəsil - Uşaq və ailə - maddə 17-21; III fəsil - Uşaq və cəmiyyət - maddə 22-29; IV fəsil - Əlverişsiz şəraitə düşmüş uşaqların müdafiəsi - maddə 30- 42; V fəsil - Yekun müddəalar - maddə 43-45) ibarət Qanunun 45-ci maddəsində deyilir ki, AR-in tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə bu Qanun arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Dərisi qaşınan qadında xərçəng tapılıb



Dəri qaşınması, əsasən allergiya və dəri xəstəlikləri ilə assosiasiya olunur. Lakin çox nadir hallarda olsa da, dəri qaşınması xərçəngin ilk simptomu kimi meydana çıxa bilər. Belə bir hadisə Nyu-York sakini olan Loren Çiarello adlı cavan qadının başına gəlib.

Saglamolun.az xarici KİV-lərə istinadal xəbər verir ki, fitnes instruktoru işləyən cavan və sağlam Loren uzun müddət ərzində güclü dəri qaşınmasından əziyyət çəkirdi. Qadının dərisi sağlam idi, onun üzərində heç bir səpki və s. yox idi. Lakin buna baxmayaraq Lorenin dərisi, xüsusilə ayaqlar, qollar və qarın nahiyyəsi o dərəcədə güclü qaşınırdı ki, qadın hətta öz işi ilə məşğul ola bilmirdi.

Loren uzun müddət ərzində müxtəlif müayinələr və testlərdən keçirdi, müalicələr alırdı. Lakin bu heç bir effekt vermirdi.

Xoşbəxtlikdən qadın özü bədənində kiçik şiş tapıb və bu da ona dəqiq diaqnozun qoyulmasına köməklik edib.

Lorendə limfoqranulematoz (limfa sisteminin xərçəngi) aşkar olunub. Qadın bir neçə kurs kimyaterapiyadan keçib və artıq 8 ildir ki, onda xəstəliyin əlamətləri üzə çıxmır. Ağır xəstəlik olan limfoqranulematozun ilk simptomu 30% hallarda məhz dərinin güclü qaşınması olur. Qaşınma xəstəliyin digər simptomlarından çox əvvəl əmələ gələ bilər. Bu səbəbdən həkimlər belə səbəbsiz dəri qaşınmasına qarşı diqqətli olmağı çağırır.

## Böyük Britaniya "Facebook"u 500 000 funt sterlinq cərimələyəcək



Böyük Britaniyanın İnformasiya Komissarlığı istifadəçilərin şəxsi məlumatlarının sızdırılması qalmaqalı ilə əlaqədar "Facebook" sosial şəbəkəsini cərimələmək niyyətindədir.

AZƏRTAC xarici KİV-lərə istinadən bildirir ki, cərimə 500 000 funt sterlinq təşkil edəcəyi gözlənilir. Komissarlığın məlumatına görə sosial şəbəkə istifadəçilərin şəxsi məlumatlarını qoruya bilməyərək qanunu pozub. Qurum bəyan edib ki, şirkət nümayəndələri şəxsi məlumatların hansı yolla üçüncü tərəfə ötürülməsinə dair dəqiq məlumat təqdim etməyiblər. "Facebook" komissarlığın qərarına etiraz edə bilər. Şirkət qurumun hesabatını təhlil edəndən sonra münasibət bildirəcəyini bəyan edib. 500 000 funt sterlinq "Facebook" kimi şirkət üçün böyük məbləğ sayılmır. Ancaq bu İnformasiya Komissarlığının tələb edə biləcəyi maksimal cərimədir.

Xatırladaq ki, şirkət ətrafında qalmaqal mart ayında "Cambridge Analytica" şirkətinin on milyonlarla "Facebook" istifadəçisinin şəxsi məlumatlarından istifadə etməsi ilə bağlı xəbərlər yayılandan sonra başlayıb. Apreldə "Facebook"un təsisçisi Mark Tsukerberq məsələ ilə əlaqədar ABŞ Konqresində ifadə vermişdi. Tsukerberq bunu öz səhvi adlandıraraq, məsuliyyəti üzərinə götürüb.

## İsrail Aya avtomatik stansiya göndərəcək

ABŞ-ın "SpaceX" şirkəti İsrailin avtomatik stansiyasını Aya göndərəcək. Bu barədə "Space.com" portalı məlumat verib. "Falcon 9" raketdaşıyıcısı ilə həyata keçiriləcək buraxılış dekabra təyin olunub. AZƏRTAC "RENtv" resursuna istinadən bildirir ki, modulun Ay səthinə enişi 2019-cu ilin fevralına planlaşdırılıb. Layihə İsrailin özəl "SpaceIL" və dövlət "Israel Aerospace Industries" şirkətləri tərəfindən birgə hazırlanır. Çəkisi 600 kiloqram təşkil edən aparat əvvəlcə "Google Lunar X Prize" layihəsi üçün hazırlanıb. O, Yer ətrafında elliptik orbitə çıxarılacaq, daha sonra Aya doğru uçuş trayektoriyasına keçəcək. Əməliyyat uğurlu keçəcəyi təqdirdə İsrail Rusiya, ABŞ və Çindən sonra Ay səthinə avtomatik stansiya çatdıran dünyanın dördüncü dövləti sırasına daxil olacaq.

## ELAN

Avstraliya Birliyinin vətəndaşı Wayne Alan Hyslop-un Azərbaycan Respublikasının ərazisində MYİ 0371116 nömrəli Müvəqqəti Yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Xorvatiya millisi tarixində ilk dəfə finala vəsiqə qazanıb



Rusiyada keçirilən futbol üzrə dünya çempionatında yarımfinal mərhələsinə yekun vurulub. Keçirilən daha bir qarşılaşma ilə ikinci finalçının adı Xorvatiya - İngiltərə matçından sonra müəyyənləşib. Görüşün 5-ci dəqiqəsində ingilislər hesabı açdsa da, Xorvatiya ikinci hissədə hesabı bərabərləşdirib. Əsas vaxt bu hesabla tamamlandığından əlavə vaxta ehtiyac duyulub. Görüşün 109-cu dəqiqəsində Mario Mandjukiç xorvatların qələbə qolunu vurub.

Bununla da, Xorvatiya millisi tarixində ilk dəfə mundialın finalına yüksəlib. Qeyd edək ki, Xorvatiya finalda Fransa ilə qarşılaacaq. Oyun iyulun 15-də keçiriləcək. Bundan bir gün əvvəl isə Belçika və İngiltərə milliləri üçüncülük uğrunda yarışacaq.




## "Qarabağ" Çempionlar Liqasına qələbə ilə başlayıb

"Qarabağ" komandası futbol üzrə Çempionlar Liqasında mübarizəyə başlayıb. "Report"un məlumatına görə, Azərbaycan təmsilçisi Sloveniya çempionu "Olimpiya" ilə I təsnifat mərhələsinin ilk oyununa çıxıb. Lyublyanadakı "Stojitse" stadionunda baş tutmuş qarşılaşma Ağdam klubunun 1:0 hesablı qələbəsi ilə yekunlaşıb. Yeganə qolu 79-cu dəqiqədə rəqib qapısı qarşısına ötürmədən sonra Donald Gerrye vurub. 85-ci dəqiqədə isə İssa Abass Bədavi Hüseynova bilərəkdən zərbə endirdiyi üçün qırmızı vərəqə alıb. Uzatma dəqiqələrində isə Qara Qarayev ikinci sarı vərəqəni alaraq, meydandan kənarlaşdırılıb. Bununla belə, sloveniyalıların cəhdləri nəticə verməyib. Beləliklə, səfərdə 1:0 hesablı qələbə qazanan "Qarabağ" iyulun 18-də Bakıda keçiriləcək cavab görüşü üçün böyük üstünlük əldə edib.

## Açıqlandı: Sarri və Jorjinyo "Çelsi"yə keçir




"Napoli"nin yarımmüdafiəçisi Jorjinyo və komandanın sabiq baş məşqçisi Mauritsio Sarrinin "Çelsi"yə keçidi rəsmiləşmək üzrədi. Apasport.az saytının xarici mətbuata istinadən məlumatına görə, bunu Neapol klubunun prezidenti Aurelio De Laurentis deyib. O bildirib ki, tezliklə hər iki keçid rəsmiləşəcək: "Sarri "Çelsi"nin "sükanı arxası"na keçmək üzrədi. Hər şey onun özündən asılıdı. Mən öz razılığımı vermişəm. O ki qaldı Jorjinyoya, biz təklifləri nəzərdən keçirdik. "Mançester Siti"dən üzr istəyirəm. Onlarla iki həftə əvvəl anlaşmışdıq. Lakin futbolçu Londonda yaşamağı üstün tutdu. "Çelsi" də bu keçid üçün bizə yüksək məbləğdə pul təklif edib. Həm Jorjinyo, həm də Sarri "Çelsi"də çalışacaq".



## "Barselona" Artur Ramosu ictimaiyyətə təqdim edib

"Barselona" Braziliyanın "Qremio" klubundan aldığı Artur Ramosu ictimaiyyətə təqdim edib. Klubun rəsmi saytında yer alan xəbərə görə, 21 yaşlı yarımmüdafiəçinin təqdimat mərasimində azarkeşlər iştirak etməyiblər. "Nou-Kamp" stadionunda aparılan təmir işlərinə görə tərəfdarlar arenaya buraxılmayıblar. Qeyd edək ki, "Barselona" transferi üçün 40 milyon avro ödədiyi Arturla 6 illik müqavilə bağlayıb. Kataloniya klubu gənc futbolçuya 400 milyon avro təzminat qiyməti qoyub.

## İquain karyerasını İngiltərədə davam etdirəcək?



"Yuventus"un hücumçusu Qonsalo İquain karyerasını İngiltərədə davam etdirəcək. Qol.az-ın İtaliya mətbuatına istinadən yaydığı xəbərə görə, argentinalı forvard "Çelsi"yə keçməyə razılıq verib. İtaliyalı jurnalistlər Kriştiano Ronaldonun transferi üçün 100 milyon avro xərcləyən Turin klubunun əlavə xərcdən qaçmaq üçün təcrübəli futbolçunu buraxmağa məcbur olduğunu yazıblar. İddiaya görə, "Yuventus" İquainin satışından 55 milyon avro qazanacaq.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500